Bədəlova Əsmər Sadıq qızı

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ BÖYÜMƏKDƏ OLAN NƏSLİN MİLLİ ÖZÜNÜDƏRK TƏRBİYƏSİ

AMİ- nin Elmi Metodik Şurasının
29.04.2013 –cü il tarixli (rrotokol №1)
qərarı ilə nəşr olunur

BAKI - 2013

Redaktor: Hüseynzadə Rüfət Lətif oğlu,
pedaqoji elmlər doktoru, professor

Rəyçilər: Həsənov Ağahüseyn Məmmədhəsən oğlu,
pedaqoji elmlər doktoru, professor
Məmmədzadə Ramiz Hüseynqulu oğlu,
pedaqogika üzrə fəlsəfə doktoru, professor
Ağayev Məmmədəli Hənnan oğlu,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
İsmayılova Nigar Ramiz qızı,
pedaqogika üzrə fəlsəfə doktoru

Bədəlova əsmər Sadıq qızı. Qloballaşma şəraitində böyüməkdə olan nəslin milli özünüdərk tərbiyəsi. Bakı -2013. 97 səh.

Metodik vəsait Azərbaycan Müəllimlər İnstitutunun pedaqogika kafedrasında hazırıanmışdır. Vəsaitdə qloballaşma və cəmiyyətdə onun təzahürləri təhlil edilmiş, qloballaşma şəraitində böyüməkdə olan nəslin milli özünüdərk tərbiyəsinin vacibliyi əsaslandırılmışdır. Tədqiqat zamanı qabaqcıl pedaqoji təcrübəyə istinad olunmuşdur.

Metodik vəsaitdən tərbiyə işi ilə məşğul olan hər kəs –müəllim və tələbələr, ailələr, ictimaiyyət nümayəndələri istifadə edə bilərlər.

Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam.

Heydər Əliyev

Azərbaycanı xalq kimi yaşadan milli - mənəvi və islami dəyərləridir.

İlham Əliyev

ÖN SÖZ

Şəxsiyyətin formalaşması problemi həm tarixən, həm də bu gün müdrik insanları, alimləri, pedaqoq və psixoloqları düşündürmüş və düşündürməkdədir. Bildiyimiz kimi, şəxsiyyət cəmiyyətin bir parçasıdır. Siyasi kataklizmlər, iqtisadi proseslər onun inkişaf tərzinə çox güclü təsir göstərir. Bu barədə islami müddəalarda, xalq pedaqogikası nümunələrində, obyekti insan olan bir çox elm sahələri ilə bağlı əsərlərdə(Bax. A.Mirzəcanzadə. "İxtisasa Giriş", Z.Göyüşov. "Fəzilət və qəbahət", Ə.Ağayev."Azərbaycan ictimai pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi", Z.Qaralov. "Tərbiyə" /üç cilddə/ və s.) birmənalı şəkildə qeyd edilir ki, insan yer üzünə fərd kimi gəlir, şəxsiyyət kimi yetişir. Onun inkişafı bioloji və sosioloji yönümlərdən təzahür edir. Hər iki yönümdən insana ətraf mühitin təsiri labüddür. Ətraf mühit isə iki cürdür: 1)qeyri-mütəşəkkil; 2)mütəşəkkil.

Qeyri-mütəşəkkil mühit uşağı əhatə edən ən müxtəlif həyati amillərdir. Bunlara çox sayda nümunələr gətirmək olar; uşağın dostluq, yoldaşlıq mühiti, getdiyi ictimai yerlər, internet klublar, efir, ekran və s. Mütəşəkkil mühit məqsədyönlü şəkildə təşkil olunmuş təlim-tərbiyə mühitidir.

Hazırda dünyada çox ciddi proseslər gedir və təzahürləri göz önündədəir. Onun ən nəhəngi qloballaşmadır. Biz qloballlaşma və onun təzahürləri barədə ötən tədqiqatlarda danışmşıq. Bir daha qeyd etməliyik ki, indi şəxsiyyətin formalaşmasına güclü təsir edən mühit amilinin ən qabarığı odur. Qloballaşmanın həm müsbət, həm də qüsurlu cəhətləri vardır. Müsbət cəhəti odur ki, millətlər və xalqlar bir –birinə yaxınlaşır. Bir birindən görüb –gütürür. Dünya təhsili, dünya mədəniyyəti, dünya xalqlarının yaşam tərzi, əxlaqi –mənəvi dəyərləri, inkişaf tendensiyaları, həyata baxışları ilə tanış olmaq imkanlarını genişləndirir. Digər gözəllik də var; onu qeyd etməmişdən əvvəl deyək ki:

1.Qloballaşmanın olduqca təhlükəli tərəflərindən biri milli şüur və mənəviyyatlara zərbə vurmasıdır; hər bir millət nümayəndəsi bunu bilməli və nəzərə almalıdır;

2. Labüd təhlukələrdən qorunmağın vacibliyini dərk etməlidir;

3.Qorunmaqla yanaşı, yaranmış imkanlardan bəhrələnərək öz millətini dünyaya yüksək səviyyədə tanıdıb təlqin etməyi bacarmalıdır. Gözəllik də məhz budur.

Onun diqtəsinə tamamilə tabe olmaq isə milli simanı itirmək deməkdir. Məxsusən böyüyən nəslin yetişib formalaşmasında və tərbiyə olunmasında. Ona görə də yüksək səviyyədə təşkil olunmuş təlim-tərbiyə mühitinə ciddi ehtiyac vardır. Bu ehtiyacı həm valideynlərlə, həm də ictimaiyyətlə əlbir işləyən pedaqoji kollektivlər ödəyə bilər. Onlar pedaqoji prosesi elə qurmalıdır ki, istər bağçada, istər məktəbdə təlim- tərbiyə alan hər kəs milli kök etibarilə kim olduğunu dərk etsin. Mükəmməl bir şəxsiyyət olaraq mənsub olduğu xalqı, vətəni, dövləti həmişə və hər yerdə layiqincə və ləyaqətlə təmsil və təbliğ etməyi üzərinə düşən borc və müqəddəs vəzifə bilsin.

Bundan ötrü öncə tərbiyə edən şəxsin özünün milli özünüdərk qabiliyyəti olmalıdır. O, mənsub olduğu kökü yaxşı tanımalı, onu bütün ali və uğursuz xüsüsiyyətləri ilə birlikdə sevməli, uğursuzluqlqrı özündən, ailəsindən, yaxın ətrafından başlayaraq korrektə etməyi bacarmalıdır. Onda milli özünütəbliğ qüdrəti olmalıdır; başqalarını yamsılamadan, başqalarına bənzəməyə çalışmadan istər yaxın, istər uzaq ətrafı cazibəsində saxlaya bilməlidir.Yaradanın verdiyi ömür möhlətində bu, onun ən vacib əməllərindən biridir.Unutmamalıyıq ki, hər bir xalqın ulu əcdadı gələcək varislərinə dörd əmanət qoyub gedir: *Vətən, dil, millilik, din.* Yerdə qalan nə varsa, bu böyük dayaqlardan sonrakı məişət rahatlığıdır. Həyatımızı, rahatlığımızı onlar üzərində qurmaqla böyüyən nəslə nümunə olmalı, milli ruhumuzu onlara aşılamalı, azərbaycanlı olmaqla fəxr etməyin nə demək olduğunu başa salmalıyıq. Bu, bizim borcumuzdur. Necə ki, Ulu Öndər Heydər Əliyev demişdir: “Bizim xalqımızın milli –mənəvi ənənələri, mədəni, milli dəyərləri həmişə, əsrlər boyu

xalqımızı yüksək mənəviyyat ruhunda tərbiyə edib, böyüdüb, yaşadıbdır. Biz fəxr edə bilərik ki, milli, dini, mənəvi ənənələrimiz, dəyərlərimiz həmişə ən yüksək mənəviyyatı əks etdiribdir.Biz çalışmalıyıq ki, bu mənəvi dəyərlərə daim sadiq olaq. Hər bir gənc öz kökünə sadiq olmalıdır, milli kökünə, mənəvi kökünə sadiq olmalıdır. Bizim o kökümüz çox sağlam kökdür və biz onunla fəxr edə bilərik. Hər bir gəncin həyatda uğurla yaşaması üçün kökünə sadiqliyi ən əsas amildir" (10,s.202).

Bəli, şəffaf sərhədlərin, miqrasiyanın gündən -günə artdığı, ən güçlü təsir vasitəsi olan informasiya –kommunikasiya texnologiyalarının bəşəriyyəti cazibəsində saxladığı informasiya burulğanları şəraitində həmin o sağlam kökə sadiqlik itərək, manqurtlaşma baş verə bilər.

Pedaqoji kollektivlər, özünü azərbaycanlı bilən və tərbiyə etmək iqtidarında olan hər kəs bu təhlükəni nəzərə almalıdır. Milli –mənəvi kökünə sadiq vətəndaşlar yetişdirmək bütün pedaqoji kollektivlərin, özünü dərk edən hər kəsin insanlıq borcudur. Güman edirik ki, təqdim olunan metodik vəsait tərbiyə işi ilə məşğul olan şəxslər üçün bu baxımından faydalı olacaqdır.

1.Qloballaşma və onun təzahürləri

Öz dövründə texnika əsri kimi səciyyələnən ötən yüzillik başa çatdı. İndi XXI yüzillikdir və o, Yer üzünü qloballaşma əsri kimi əhatələyib. Qloballaşma tarixi inkişafın xələfi olmaqla həyatın bütün parametrlərinə sirayət edən reallıqdır. Bu barədə mənbələrdə müxtəlif fikirlər yürüdülür; onu təqdir edənlər də var, qüsurlarını söyləyənlər də.

Tamamilə təqdir edənlər zahiri effektləri əsas götürərək problemin dərinliklərinə varmadan fikir yürüdürlər. Belə fikirlər televiziya kanallarının "elmi polemika" adı altında gedən şok proqramlarında, bəzi qeyri-professional auditoriyalar qarşısında səslənir və kütlə psixologiyasına xidmət edən mətbuat səhifələrində həyata qədəm qoyur.

Bütün xüsusiyyətləri və bütün incəlikləri ilə təhlil edənlər isə onun energetikasında mənfi yüklərin, dağıdıcı qüvvənin varlığını vurğulayırlar. Belə fikirlər peşəkar siyasətçilərə, kultroloqlara, etnoqraflara, ustad pedaqoqlara məxsusdur.

Nədir qloballaşma?

Qrammatik quruluşundan göründüyü kimi, bu ifadənin kökündə latınca ***qlobus*** (kürə) sözü olmaqla ***qlobal*** (fransızca-ümumi) sözü dayanır. "Qlobal ən

ümumi, bütün yer üzünü əhatə edən deməkdir" (27,s. 44). Mənbələrdə qeyd edilir ki, XX əsrin II yarısından sonra dünya miqyasında baş verən fundamental prosesləri izah etmək üçün ilk dəfə 1967-ci ildə qloballşma terminindən istifadə edilmişdir.

"Qloballaşma müasir iqtisadiyyatda hər hansı hadisənin ümumdünya əhəmiyyəti kəsb etməsidir. Ən şox iqtisadiyyat sahəsinə şamil edilir. "Qloballaşma" termini qlobal problemlərin mənşəyini, meydana gəlməsini və həlli dinamikasını öyrənən "qlobalistika" elmi istiqamətindən törəmədir.

Qloballaşma-dünyanın struktur diferensiasiyasına varlı və kasıb dövlətlərin qarşılıqlı münasibətlərinə və onların mədəniyyətinin qarşılıqlı əlaqələrinə həm müsbət, həm də mənfi təsir göstərən ziddiyyətli prosesdir.

Dünya təsərrüfatında bütün ölkələrin, xalqların bərabərliyi və bərabərhüquqluluq problemlərinin kəskinləşməsi də qloballaşma prosesi ilə əlaqədardır. Ona görə də dünyada antiqloballaşma hərəkatı yaranmışdır" (24,s. 37).

Sitatdan göründüyü kimi, professor Zahid Qaralov qloballaşmanı hər hansı hadisənin ümumdünya əhəmiyyəti kəsb etməsi kimi səciyyələndirir və müasir şəraitdə ən çox iqtisadiyyat sahəsinə şamil olunduğunu yazır.

Bəli, bu gün belədir. Amma bu günü təhlil etməzdən əvvəl düşünək: Bəs tarixən? Qloballaşmanın tarixi haralara gedib çıxır?

Mənbələrin təhlili göstərir ki, tarixin müxtəlif dövrlərində müxtəlif qlobal cərəyanlar, hadisələr bəşəriyyətin həyatını lərzəyə salıb, yeniliklər gətirib, qanlar töküb və adını zamanın üzərində yazıb. Məsələn, tədqiqatlardan birində deyilir ki, qloballaşma sözü 90-cı illərdən işlənsə də tarixi çox qədimdir. O, müxtəlif dövrlər ərzində formalaşmışdır: sənətkarlıq, manufaktura, mexanikiləşmə və avtomatlaşdırma... Hazırda qloballaşma adlanan proses müxtəlif dövrlərdə müxtəlif xalqlar, hətta müəyyən şəxslər tərəfindən həyata keçirilib. Makedoniyalı İskəndərin, Atillanın o vaxt məlum olan, demək olar ki, bütün əraziləri işğal etməsi, müəyyən tarixi dövrlərdə müəyyən dillərin hegemonluğu

(yunan, latın, ərəb və s.) mahiyyətcə qloballaşma sayıla bilər. Sadəcə bu günkü qloballaşma özünün həyata keçmə vasitələrinə görə fərqlənir. Əgər daha əvvəllər qloballaşma silah, qorxu vasitəsilə həyata keçirilirdisə, hazırda bu, informasoya vasitəsilə həyata keçirilir...

Fikri dəstək götürərək buraya digər məşhur fatehlərin və inperiyaların adlarını da əlavə edib (məsələn, Hun imperiyası, Teymurləng, Ş.İ.Xətai və i.a) şərhlər verə bilərik. Lakin məqsədəmüvafiq saymırıq. Çünki onlardan da qlobal hadisələr olmuşdur ki, onu kürreyi- ərzin çox hissəsi deyil, bütün bəşəriyyət yaşamışdır və yaşamaqda davam edir. Bu baxımdan, qloballaşma faktlarını aşağıdakı kimi qruplaşdırmaq olar:

- *İlahi hökmlə baş verənlər*
- *Kəşflər*
- *Qlobal cahiliyyə*
- *Bəşəri inkişafın təzahürü və s.*

- *İlahi hökmlər* Mütləq Həqiqət tərəfindən Yer üzünə göndərilən Kitab və dinlərdir ki, peyğəmbərlər və onların tərəfdarları vasitəsilə bəşəriyyətə aşılanmışdır. Dörd Kitabın (Tövrat, Zəbur, İncil, Quran) hökmündən hazırda üçü- yəhudilik, xristianlıq və islam bərqərardır ki, onlardan da ikisi daha geniş əhatəyə malikdir: xristianlıq və islam.

- *İnsanın ilk qlobal kəşfi* ***oddur.*** Yer üzündə həyatın davam etməsində bu kəşfin müstəsna xidməti var və axıradək olacaq.[1] Od tədriclə qlobal iqtisadi və siyasi proseslərin mənbəyinə çevrilmişdir.

İnsanin digər qlobal kəşfi ***çarxdır***. Çarx ilk dəfə iqtisadi ehtiyacları asanlaşdırmaq niyyəti ilə düşünülüb tapılıbsa da, tədriclə odla birləşərək iqtisadi və siyasi proseslərin nüvəsində dayanmış, özünə odunun yaratdığı oddan əlavə, digər od mənbələri tapmış, qanada çevrilərək Yerin cazibəsindən belə çıxa bilmişdir.

[1] Dünyadakı inkişaf etmiş dillərin heç birində od və od yaradan vasitənin semantik vəhdəti yoxdur; Azərbaycan dili müstəsna olmaqla: od-odun. Görəsən, odu bizim əcdadlarımız kəşf etməyib ki?

• *Qlobal cahiliyyə* - atəşpərəstlik və bütpərəstlikdir ki, biri elə od kəşf olunandan sonra onun yandırıb yaxıcı gücü qarşısında qorxudan yaranmışdır. İkincisi, heç bir əsası olmayan, yalnız və yalnız anlamazlıqdan törənən ictimai hadisədir; amma var və kitab əhliyəm deyənlərin arasında da yaşanır.

•Bütün bunlar birlikdə qarışıb yoğrularaq bəşəriyyətin daş dövründən nüvə dövrünədək keçdiyi *uzun inkişaf yolunu* təzahür etdirir. Və qlobal inkişaf özü bir generator olmaqla yeni müsbət və mənfi qlobal hadisələr törədir. Onun da mərkəzində insanları "nəfsi - əmmarə əlində əsir edən" iqtisadiyyat dayanır.

Əkinçilik və maldarlığın inkişafı, sənət və sənətkarlıq, şəhərsalma, memarlıq, əlifba, yazı, kitab və kitabxanalar, mətbuat, təhsil və təhsil ocaqlarının yaranması, ticarət əlaqələri, sənaye, teatr, kino, telefon, radio, televiziya, elektron informasiya-kommunikasiya vasitələri, dünya xalqlarının bir - birindən görüb - götürməsi və s. iqtisadi qloballaşmanın müsbət təzahürləridir.

Dünya müharibələri, dünya iqtisadi böhranları, qlobal terrorizm, qlobal narkomaniya, qlobal mafiyalar, qlobal istiləşmə, deşilmiş ozon qatı, ekoloji fəlakətlər, qlobal xəstəliklər, qlobal miqrasiya və s. isə mənfi təzahürlərdir.

"Çalxalandıqca, bulandıqca zaman nehrə kimi" istər müsbət, istər mənfi amillər siyasi qloballaşmaya gətirib çıxarır. İbtidai icma dövründən günümüzədək ictimai- iqtisadi formasiyaların bir- birini əvəzləməsi bu səbəbdəndir. Fatehlər və fatehlik iddiaları, imperiyalar, super dövlətlərin özünüdiktə faktları bu amilə əsaslanır. Lakin onların heç biri xalqların milli-mənlik şüurunu iflic, milli özünəməxsusluğunu tamamilə məhv etməyib.

Ulu sözünə diqqət yetirək:

"Azərbaycan xalqı müstəmləkəçilik zülmü altında nə qədər yaşayıbdır. Azərbaycan xalqı cürbəcür hökmdarların əlində olubdur, tarix boyu nə qədər əziyyətlər çəkibdir. Ancaq dilini də, dinini də, adət -ənənələrini də öz mənəvi əxlaq mntalitetini də saxlayıbdır, bütün əxlaqi normalarını –hamısını saxlayıbdır.

Bilrsiniz, bəzən bu “mentalitet” sözünü çoxları mənfi bir məfhum kimi qiymətləndirirlər və bəzən də deyirlər, bəli, Azərbaycan xalqının mentaliteti belədir. Yəni “mədəniyyəti o qədər yoxdur, dünya mədəniyyəti ilə hələ o qədər yaxınlaşmayıbdır, filan olmayıbdır”.

Mən sonra ümumbəşəri dəyərlər haqqında da danışacağam. Mən bu gün bir azərbaycanlı kimi, özündə həm milli –mənəvi dəyərləri, həm də ümumbəşəri dəyərləri cəm edən bir insan kimi deyirəm ki, bizim xalqımızın mənəvi -əxlaqi mentaliteti onun ən böyük sərvətidir. Biz bunları qiymətləndirməliyik. Şübhəsiz ki, mentaliteti o birisindən fərqli olmayan xalq öz xarakterini göstərə bilməz. Hər xalqın öz mentaliteti, əxlaqi qaydaları vardır. Bizdə nə qədər gözəl qaydalar var. İndi onları nəyəsə başqa şeylərə qurban vermək olmaz.

Məsələn, bizim xalqımızda əsrlərdən bəri formalaşmış, gəlmiş adətlər vardır: kiçiyin böyüyə hörməti, böyüyün də kiçiyə qayğısı və məhəbbəti. Bu, bizim xalqımızın mentalitetidir və biz bununla fəxr etməliyik. Ancaq bəziləri indi nəyi təbliğ edirlər: “Heç kəsi sayma, nə ağsaqqal var, nə böyük var, nə filan var, bəsməkan var. Burada mənəm və mən nə dedim –o da olmalıdır”. Yox, bu ola bilməz...

Bunlar əsrlər boyu bizim əcdadlarımız tərəfindən yaranmış adət - ənənələrdir. Biz bunları qorumalıyıq, saxlamalıyıq. Bu böyük bir mövzudur. Mən indi burada çox danışa bilərəm, ancaq hesab edirəm ki, əsas fikirləri bəyan etdim. Güman edirəm ki, bizim alimlərimiz, tədqiqatçılarımız bu sahədə çox geniş iş görməlidirlər. Bizim milli –mənəvi dəyərlərimiz, bizim tarixi milli köklərimiz, bizim dilimiz və dinimiz –hamısı bizim milli ideologiyamızın böyük bir hissəsidir, böyük bir qoludur” (12, s.223 -224).

Baxmayaraq ki, bu gün dünyada “insan azadlığı” və “demokratiya” pərdəsi altında gedən proseslər məhz milli özünəməxsusluğun məhvinə istiqamətlənib, biz bu müdrik tövsiyələrdən qüvvət almalı, milli özündərkə ciddi rəvac verməliyik.

Əvvəldə qeyd etdiyimiz kimi, 90 - cı illərdən etibarən dünya sürətli qloballaşma reallığını yaşamaqdadır. O zaman analitiklər yazırdılar ki, yer

üzü kiçik bir kəndə çevriləcək. Elə də oldu. İndi dünya birqütblü şəkildə Super Güc tərəfindən idarə olunur. Sürətli ümumdünya informasiya mübadiləsi mövcuddur. Dünya pul vahidi (vahidləri) var; dünya maliyyəsinin sabitliyi, yaxud böhranı həmin vahidlərin alıcılıq qabiliyyəti ilə ölçülür. Bir sıra dövlətlər və xalqlar vahid mərkəzdən idarə olunan təcavüzə düçar olmuşdur. Terror, narkotik qaçaqmalçılığı, insan alveri gündəlik hal almışdır. Təhsil qloballaşıb. Rişəsini hər yana atmış ümumdünya dili var. Mədəniyyətlər inteqrasiya olunur. Milli simalar tədriclə itir və öz yerini dünya adamının yaranması prosesinə verir. Dövlətlərarası sərhədlər şəffaflaşır. Milli mənlik şüurları zəifləyir.

Cəmi iki onillikdə hadisələrin belə şəkil almasında mütəxəssislər ABŞ və Avropanı səbəbkar bilir və daha çox ABŞ - ın adını hallandırırlar. Qeyd edək ki, uzun illərdən bəri dünyanı idarə edən çox güclü və təhlükəli təşkilatlar, ideologiya və cərəyanlar da mövcuddur. Onlar məqsədə nail olmaq üçün çoxsaylı aşkar və gizli vasitələrdən istifadə edirlər. O cümlədən:

- Kapital yatırmaqla mənəviyyat və şüurlarda dəyişiklik etmək.
- Milli adət - ənənələrə alternativ adət - ənənələrin təbliği.
- Sintez adı ilə milli mədəniyyətə nüfuz.
- Demokratiya və insan azadlığı adı altında qarışıq nigahlara və digər qeyri-məqbul münasibətlərə rəvac.
- Müxtəlif sektalar vasitəsilə vahid dini əqidəni laxladıb dağıtmaq.
- Sezdirmədən ailə institutuna müdaxilə və s.

İllərdir sosial şəbəkələrdə ABŞ istehsalı olan “Meltinqh pot” (əriyən qazan; danışacağımız kontekstdə ərinti) adlı animasiya filmi nümayiş etdirilir. Filmdə ocağın üstünə qoyulmuş qulplu tava təsvir olunur. Tavanın qulpu tərəfdə dünyanın milli libaslı müxtəlif insanları dayanmışlar. Onlar bir - bir qulpun üzərinə çıxır və sürüşüb tavaya düşürlər. Orada əriyib yeni insana çevrilir və tavadan o biri üzə keçirlər. O biri üzdə eyni biçimli, eyni görkəmli insanlar toplanır; onlar dünya adamıdır. Filmin ideyası millilikdən üz

döndərərək əriyib, simasızlaşıb dünya adamına çevrilməyin "şərafət" və "gözəlliyini" təbliğ etməkdir.

Hələ formalaşmamış, həyati reallıqları olduğu kimi dərk etməyən, valideyn nəzarətindən kənarda qalan, vaxtını kompüter arxasında, internet klublarda keçirən nəslə ən müxtəlif parametrlətdən yanaşaraq onlara "canıyananlıq" göstərən, "bədii zövq" aşılayan belə materiallar- filmlər, oyunlar, tanışlıqlar, informasiyalar çoxdur və milli simasızlıq sindromu törətdiyi üçün təhlükəlidir; həm böyüməkdə olan nəsil üçün, həm də onun mənsub olduğu cəmiyyət üçün. Bu yöndən nüfuzlu siyasətçilərin fikirlərinə istinad edərək deyə bilərik ki, qloballaşma milli özünəməxsusluğu xüsusi dünyagörüşü çərçivəsinə salaraq sərt şəkildə məhdudlaşdırır. Milli mədəniyyət və ənənələrin öncüllüyünü dağıdır, özünəməxsusluqdan uzaqlaşmanı gücləndirir.

Beləliklə, hazırda qloballaşmanın mərkəzi nöqtəsini təşbehən kosmik qara bacaya bənzətmək olar. O, ətrafındakıları hiss etdirmədən kamına çəkir; çəkdikcə böyüyür, gücü, qüdrəti artır, inkarolunmaz fəlakət mənbəyi kimi yaşayır...

İstənilən xalqın proseslərə könüllü təsliminin nəticəsi budur. Nəyə görə "könüllü" deyirik? Çünki bir sıra mütəxəssislər mülahizə yürüdürlər ki, qloballaşma bütün dünya xalqlarının ümumi iqtisadi, mədəni, siyasi formada yaşamasıdır. Demək, öz milli mənsubiyyəti ilə fəxr edən qövm bu prosesdə başqalarının təsiri altına düşməz, hərəkatda bərabər hüquqla iştirak edər və fürsətdən yararlanıb öz milli- mənəvi dəyərlərinin təbliğinə çalışar, nail də olar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları İkinci Bakı Humanitar Forumunda bu ideyanı xüsusi vurğuladı: "Azərbaycanda multikulturalizm sahəsində əldə edilmiş təcrübə, hesab edirəm ki, hamımız üçün çox maraqlıdır. Multikulturalizm forumun mövzularından biridir. Əminəm ki, bu mövzu ilə bağlı çox dəyərli fikirlər səslənəcək, diskussiyslsr aparılacaqdır. Multikulturalizmin müsbət gələcəyi haqqında fikirlər çox vacibdir və lazımdır. Azərbaycanın təcrübəsi, hesab edirəm ki, əslində multikultualizm ideyalarının

təbliği üçün çox dəyərli və qiymətlidir. Çünki bir daha demək istəyirəm ki, multikulturalizm bizim həyat tərzimizdir. Nisbətən yeni anlayış olmasına baxmayaraq, multikulturalizm əsrlər boyu xalqımıza xas olan bir anlayışdır. Əsrlər boyu müxtəlif dinlərin, millətlərin nümayəndələri Azərbaycanda bir ailə kimi yaşamışlar. Azərbaycanda heç vaxt dini, yaxud da ki, milli zəmində qarşıdurma, anlaşılmazlıq olmamışdır və əminəm ki, olmayacaqdır. Multikulturalizmlə bağlı son illər ərzində dünyada müxtəlif fikirlər vardır. Bəziləri hesab edirlər ki, multikulturalizm iflasa uğrayıbdır, onun gələcəyi yoxdur. Biz elə hesab edirik ki, onun bu günü və gələcəyi vardır. Hamımız çalışmalıyıq ki, multikulturalizm meyllərini gücləndirmək üçün öz səylərimizi qoyaq. Bakı Beynəlxalq Humanitar Forumunun məqsədlərindən biri də məhz multikulturalizm meyllərinin gücləndirilməsidir.

Multikulturalizmin alternativi yoxdur. Mən bu bardə keçən forumda da fikirlərimi bildirmişəm. Bir daha tam əminliklə deyə bilərəm ki, multikulturalizm gələcək inkişaf üçün ən məqbul variantdır... Biz çalışmalıyıq ki, bütün dünya xalqları bir- biri ilə əməkdaşlıq etsinlər, qarşılıqlı anlaşma güclənsın, qarşıdurmaya yol verilməsin" (2).

Demək, özümüzə xas olan keyfiyyətləri qorumaqla, yalnız Azərbaycandakı yox, dünyadakı xalqlarla da multikulturalizm şəraitində yaşaya bilərik. Sadəcə olaraq ataların bir sözünü unutmamaqla: "Əvvəl evin içi, sonra çölü". Yəni əvvəl millilik, sonra bəşərilik. Milliliyin bir kənara qoyulub bəşəriliyin ardınca qaçıldığı şəraitdə milli sima itir.

Həyat təcrübəsi az olan, yaxud yaşı çox olsa da məntiqi zəif olan bəzi adamlar "Avropada belə deyil" deyərək, yaşı min illərə bərabər adət-ənənələrimizi, ailə institutumuzu tənqid edir, əvəzinə kənardan nəyisə götürməyi (?!) lazım bilirlər. Böyüyən nəslin şüuruna ötürülən bu "fikirlər" vətənpərvərlik deyil, mənəvi dayazlıqdır.

Qoy Avropada və dünyanın digər yerlərində yaşayan insanlar da bəzi dəyərləri bizdən götürsünlər. Necə ki, son illər gəlib, görüb valeh olurlar. Şübhəsiz, qüsurlarımız da yox deyil; onları Sabir, Mirzə Cəlil, Haqverdiyev,

Nərimanov... yazmışdılar, demişdilər. Amma necə demişdilər, çoxu elə də qaldı, tamam düzəlmədi. Bax, qloballaşma şəraitində bunu düşünmək, böyüyən nəslə bu qüsurlara yol verməməyi tələqin etmək lazımdır.

İndi Avropada və dünyanın digər ölkələrində qloballaşma əleyhinə hərəkatlar mövcuddur. Sərvaxt xalqlar belə təhlükəli prosesdə əriyib itməmək üçün böyüyən nəslin tərbiyəsində milli dayaqlara önəm verməkdədirlər. Bu barədə mətbuatdan, sosial şəbəkələrdən, ekranlardan məlumat alırıq, təsvirlər görürük. Demək, həmin hərəkatlar məhz adət - ənənələrin fərqliliyi olan və həmin fərqi milli dəyər olaraq qoruyub saxlamağa çalışan insanların ağıl və dərrakə sahiblərinin analitik təfəkkürünün nəticəsidir.

Bununla demək istəmirik ki, bəşəri dəyərlərdən qaçmaq lazımdır. Xeyir. Elə ifadədən də göründüyü kimi, bəşəri dəyər bəşəriyyətin hər bir üzvünə lazım olandır. Onu bir xalq, bir millət, yaxüd ölkə yaratmayıb. O, min illiklər boyu bəşəri sivilizasiyanın, milliətlərarası əlaqələrin, iqtisadı bağlılıqların və digər vəhdət və ayrılıqların təzahüründən yaranan nəticədir; hamıya lazımdır. Onu qorumaq lazımdır. Amma özündən, öz kökündən qopmaqla, özünə arxa çevirməklə, nə bəşəriyyətə, nə də xalqına, fayda gətirməyəcək eybəcər, qondarma, qüsurlu nələrisə əxz edib özünü müasir təsəvvür etməklə yox.

Bu barədə məsəl var: “Ayağı yerdən üzülənin başı göyə dəyməz, yerə dəyər”.

Milli maraqlarını dünyaya yüksək səviyyədə diktə edə bilən Azərbaycan dövlətinin tutduğu yolla getməklə, şübhəsiz, biz də özümüzü qoruya və həm də təbliğ edə bilərik. *Ən gözəl, ən düzgün yol budur.*

2.Qloballaşma şəraitində milli özünüdərk tərbiyəsinin vacibliyi

Qeyd etdik ki, qloballaşma qarşısıalınmaz prosesdir. Ona görə də hər hansı xalq hərəkatı, etiraz tədbirləri onu dayandıra bilməz; olsa -olsa prosesi qəbul etməyənlərin varlığının göstəricisidir. Məntiqə görə, ən yaxşı taktika sivil yolla özünümüdafiədir. Bu işdə cəmiyyətin bütün şüurlu təbəqəsi iştirak etməlidir. Amma əsas yük məktəb və ailənin üzərinə düşür.

Uşaqlar millətin gələcəyidir. Onların yetişib formalaşmasında məktəb, ailə və ictimaiyyət çox böyük iş görə bilər və bir zamanlar görürdü. Hazırda həmin üçbucaq, demək olar, tam deyil.

Bir zamanlar ictimaiyyətin sıravi, savadsız nümayəndəsi belə böyüyən nəsildə qüsurlu hərəkət görəndə tanıdı - tanımadı onu korrektə edir, düzgün yol göstərirdi. Məsələn, bir qocanın yanından keçən uşaq salam vermirdisə, qoca onu saxlayıb, kimin övladı olduğunu və hökmən müəlliminin kim olduğunu soruşurdu, başa salırdı ki, salam vermək ədəbdəndir. Yaxud, bir uşaq salam verib keçirdisə, onun salamını əhval -ruhiyyə ilə alır və yenə də müəlliminin, valideyninin kim olduğunu soruşurdu.

Məktəbdə dərslər qurtarandan sonra evə getməyə yubanan, haradasa dayanıb pıçıldaşan, söhbət edən məktəbliləri görəndə irad tuturdular: -Nə olub? Niyə evə getmirsiz?

Bunlar hamısı yetişməkdə olan nəslin, məktəbin, bütövlükdə cəmiyyətin xeyrinə idi. Bu gün ictimaiyyət çox biganədir; elə qocalar da tək – təkdir, elə canıyananlıq da. Bununla belə, demək olmaz ki, ictimai mühit böyüməkdə olan nəslə laqeyddir. Təsir var, lakin başqa yöndən.

Ailəyə gəlincə, bu gün onları uşaqların tərbiyəsinə göstərdiyi diqqət və məktəblə əlaqəsinə görə qruplara ayırmaq olar. Bir qrup valideyn bütün günü kapital ardınca hərəkətdədir. Övladına hər cür şərait yaradıb, amma məktəbə getməyə, müəllimlə həmsöhbət olmağa, uşağı ilə bağlı təfərrüatları öyrənməyə, incə maqamları müəllimlə bölüşməyə vaxt tapmır. Başqa bir qrup valideyn bütün günü işləyir. Gün çıxandan batanadək çöldə işləyən valideyn istəsə də məktəblə əlaqə saxlaya bilməz. Əksinə, o, bəzən uşağını məktəbdən ayırıb, öz köməkçisi edir. Nəhayət, məktəblə müntəzəm əlaqə saxlayan valideynlər var ki, onların da əksəriyyəti ya müəllim, ya da müəyyən ziyalı təbəqəsidir.

Deməli, cəmiyyət daxilində mötəbər cəmiyyət olan məktəb özünün iki ən yaxın tərəfdaşını itirib. Bu yaxşı hal deyil. Bundan da pisi, dözülməz olanı odur ki, indi böyüməkdə olan nəslin tərbiyəsinə məktəbin özündən də güclü təsir edən yeni qüvvə yaranıb: kommersiya – ekran -efiri. Bu gün Azərbaycan evlərinə təkcə yerli ekran vasitəsilə sutkada 200 saatdan çox veriliş ötürülür. Onun yarıdan çoxu ədəb - ərkandan kənardır; yaxud, başvermə, həyatakeçmə tərzlərini bütün detalları ilə izah edib təbliğat effekti yaradan kriminal "şoulardır", biədəb kliplər və reklamlardır. Hələ xarici kanalları, telefonları, internetdə insan mənəviyyatını pozan saytları, virtual oyunları, video materialları... demirik.

Az - çox ədəbli sayıla bilənlər isə mənəvi tutumuna görə misal gətirdiyimiz qocanın bircə iradı qədər təsiredici deyil. Böyüməkdə olan nəslin daxili dünyası yüngül ab - havaya - şouya o qədər vərdiş edib ki, artıq sanballı, dəyərli, klassik sayılan nə varsa, onun üçün köhnəlik əlamətidir və qəbulolunmazdır. Ümumən, ekran və efirin mənəvi tərbiyə baxımından yaratdığı fəsadlar ölçüyəgəlməzdir və saymağa lüzum da yoxdur. Heç olmasa öz televiziyalarımıza iradlarımız olmasın...

Onlar Ulu Öndər Heydər Əliyevun tövsiyələrini unutmasınlar: "Televiziya xalq ilə, vətəndaşlarımızla kütləvi informasiya orqanları arasında əlaqə yaradır, eyni zamanda xalqın, vətəndaşların bir –biri ilə əlaqələrini daha da artırır. Teatrı biz vaxtilə çox yüksək qiymətləndirirdik. Çünki insanların estetik

tərbiyəsində, onların mənəvi səviyyəsinin artmasında, insanların mənəvi cəhətdən formalaşmasında teatr həmişə böyük rol oynamışdır. Sonra teatrla bərabər kino bu rolu oynamağa başladı. Dünyada televiziya meydana gələndən sonra televiziya bu iki çox mühüm sahənin fəaliyyətini, ola bilər, bir qədər məhdudlaşdırsa da, eyni zamanda onların əldə etdiyi nailiyyətləri geniş kütlələrə çatdırmaq üçün ən gözəl, ən gərəkli bir vasitə oldu...

İnsanların mənəvi tərbiyəsində, mənəvi inkişafında televiziyanın rolu çox böyükdür. Televiziya respublikanın həyatında gedən prosesləri əks etdirərək xalqımızda, vətəndaşlarda ictimai –siyasi fəallığı artırıbdır. Televiziya xalqımızın gözəl ənənələrini, milli ənənələrini, mənəvi ənənələrini təbliğ edərək insanlarımızı mənəvi cəhətdən daha da yüksəltməyə kömək edibdir. Televiziyamız tariximizin səhifələrini əyani surətdə təbliğ edərək hər bir vətəndaşın öz keçmişini, tarixini, millətin aqibətini daha yaxından bilməsinə kömək edibdir. Televiziya çox işlər görübdür, bu gün də çox işlər görür. Bu barədə çox danışmaq olar...

Ermənistanın Azərbaycana etdiyi təcavüz, ədalətsizlik nəticəsində Azərbaycanda xalqın, xüsusən gənclərimizin bu ədalətsizliyə qarşı etiraz nümayişlərinə və Azərbaycanın müstəqilliyi uğrunda mitinqlərə çıxması məhz televiziya vasitəsilə xalqımıza çatdırılıb və bu, xalqımızda milli oyanış, milli dirçəliş ruhunu inkişaf etdirib, milli həmrəylik əhval –ruhiyyəsi yaradıbdır. Bu da televiziyanın çox böyük xidmətlərindən biridir...

Televiziya insanların mənəvi tərbiyəsini yüksəltmək üçün çox gözəl bir vasitədir. Televiziya bu işi davam etdirməlidir. Bizim insanlarımızda milli vətənpərvərlik ruhu, milli qürur hissi daha da inkişaf etməlidir və televiziya bu sahəyə bundan sonra da ciddi fikir verməlidir. Azərbaycan Respublikasının müstəqilliyinin qorunub saxlanılması üçün lazım olan tədbirlərin görülməsinə və bu sahədə görülən işlərin təbliğinə Azərbaycan milli televiziyası çox geniş yer ayırmalıdır. Bu sahədə atılan hər bir addım bizim dövlət müstəqilliyimizi möhkəmləndirəcək və inkişaf etdirəcəkdir. Televiziyanın bu sahədə geniş

imkanları var və ümidvar olduğumu bildirmək istəyirəm ki, televiziya bu imkanlardan geniş istifadə edəcəkdir.

Biz müstəqil respublikamızda, müstəqil ölkəmizdə öz elmimizi, mədəniyyətimizi, tarixi nailiyyətlərimizi, tarixi keçmişləri daha geniş təbliğ etməliyik. İnsanlar, xüsusən gənc nəsil bunları yaxşı bilməlidir. Bunu da televiziya vasitəsilə çox məharətlə həyata keçirmək mümkündür.

Televiziya işçilərinə qarşı çox böyük tələblər də var. Onlar gərək ekranda hər bir vətəndaş üçün nümunə olsunlar –həm özlərinin danışığı ilə, həm görünüşü ilə, həm ekranda özlərini aparması ilə, ümumiyyətlə, hər bir cəhətdən nümunə olsunlar. Bilirsinizmi, insanlar televizora baxarkən özləri üçün çox şey götürür, mənimsəyirlər. Amma bəzi şeylərdən də dərhal imtina edirlər. Əgər o verilişlər insanların əhval -ruhiyyəsinə uyğun deyildirsə, yaxud o verilişləri aparan adamlar onların əhval –ruhiyyəsinə uyğun hərəkət etmirlərsə, televiziya işçiləri bunu da bilməli və dərk etməlidirlər" (12, s. 553 -554).

Milli mənəvi dəyərlərdən danışarkən buraya ifrat azadlıq məsələsini də daxil etmək yerinə düşər. Azadlıq - insanın özünü cəmiyyət daxilində rahat hiss etməsi, sözünü deyə bilməsi, istədiyi kimi (!!!) yaşaya bilməsidir. Bəs, görəsən, insan nə istəyir? Onun istəyini həmişəmi xeyir mələkləri müşayiət edir? Hələ bərkiməmiş, cəmiyyət deyilən toplumun cəm etdiyi insanların sayı qədər sifətlərdən bixəbər məktəblini istənilən mühitdə və istənilən şəraitdə azad və sərbəst buraxmaq olarmı?

Xeyir!

Uşağa mədəni mühitdə, mənəviyyatlı mühitdə, məsələn, məktəbdə, normal ailədə, normal birliklərdə istədiyi azadlığı vermək olar. Yenə də arxada müəllimin, valideynin, hansısa məsul şəxsin nəzarəti varsa. Bu, diktatura deyil, despotluq deyil, canıyananlıq, həm də mili təəssübkeşlikdir.

Çox təəssüf ki, bəzən mədəni mühitə qeyri - mədəni əllər uzana bilir. İxtisasca müəllim olmayan, millətin gələcəyinə mədəsinin gözü ilə baxan adamlar məktəbin işinə "fayda" verməyə çalışırlar. Məsələn, son illər bəziləri

tərbiyə prinsipləri ilə bağlı belə bir "məntiq" yürüdürlər: uşağa həyatın hər üzünü öyrətmək lazımdır ki, böyüyəndə çətinlik çəkməsin; Qərbdə belədir.

Avaz yaxşıdır, oxunan Quran olsa.

Bəli, uşağa həyati çətinlikləri öyrətmək nəinki lazımdır, hətta vacibdir, amma "Möment" yapışqanını iyləməklə sərxoş olmağın mümkünlüyünü yox! Həm milli, həm də coğrafi psixologiyanı nəzərə almaq lazımdır. Qərb uşağı "Möment" yapışqanının "möcüzəsini" eşidib öyrənər, lakin Qərb soyuqqanlılığı ilə onun praktik tərəfinə əhəmiyyət verməz. Qaynar qanlı şərqli isə "dadına baxmasa" qərar tutmaz. Ona görə də yadlardan örnək götürərək uşağa həyatın çirkab qatı haqında biliklər verib "dəlinin yadına daş salmaq" yolverilməzdir. Əvvəla, o, böyüyüb həyata atılandan sonra qeyri - məqbul əməllərlə rastlaşarsa, yaşı və mənəviyyatı onu tarazlıq vəziyyətindən çıxmağa qoymayacaq. İkincisi, olsun ki, ömrünün sonunadək belə təzahürlərlə rastlaşmasın. Onda bu gün dünyanı yeyib dağıtmaq üçün demokratiya pərdəsi altında insana heyvani dərəcədə azadlıq verməyi təbliğ edən Qərbin şərəfinə millətin övladları üzərində eksperiment aparmağa lüzum varmı? Biz orta və yaşlı nəsli müsbət ideallar ruhunda tərbiyə etmişlər, nə olub ki? Dünyadan çoxmu geri qalmışıq? Bütün dinlərdə insan azadlığının əndazələri var; onu Yaradan müəyyənləşdirib. Və bütün Müqəddəs Kitablarının hökmünə görə, aşkar görmək mümkün olmayan işləri gizli də görmək olmaz! Elə isə hələ bərkiməmiş, özünü doğrultmamış şüurlarda gizli işlər haqqında məlumatlar yerləşdirmək məqbuldurmu? Bu, millətə, xalqa, bəşəriyyətə xəyanət deyilmi?

Axı, min illər boyunca formalaşmış, özünü təcrübədə təsdiq etmiş xalq pedaqogikasında, istər Şərqdə, istər Qərbdə adını tarixə yazmış dahilərin pedaqoji baxışlarında belə müddəa yoxdur.

Axı, bizim dünyaya təbliğ olunası keyfiyyətlərimiz var. Niyə onları yaşatmayaq, nümayiş etdirib başqalarına sevdirməyək? Niyə dünya bizi ailə institutumuza görə tanımasın? Niyə dünya bilməsin ki, yer üzündə bir ölkə var, orada kişi sözü, qadın ləyaqəti ən mötəbər hökmlərdən, fərmanlardan üstündür?

Həmin ölkədə valideynlər övladlarının üstündə yarpaq kimi əsirlər; hətta övlad böyüyüb özü valideyn olsa belə. Böyüyün böyük, kiçiyin kiçik yeri var.

Bununla bərabər, niyə ümummilli mənafe naminə mübariz deyilik? Niyə digər xalqlar öz milliliyini hamılıqla qoruyub saxlaya bilir, bizim bəzi adamlar yox? Məsələn, bir seminarda görkəmcə azərbaycanlıya oxşamayan qadın vardı. Hamı onu Amerikadan gəlmiş bilirdi. Sən demə ali təhsil ocaqlarından birində işləyən "milli" nümayəndə imiş. Yanlışlığı biləndə sevinib özünü çox xoşbəxt hiss etdiyini dedi... zavallı!

Görəsən, niyə özümüzü görkəmcə başqalarına bənzətməyə çalışırıq və bunu xoşbəxtlik sayırıq? Niyə dünyanın saysız qədər adət - ənənələrini məişətimizə gətirməliyik? Məgər öz adət - ənənələrimiz bizə utanc gətirəcək tərzdədir? Bir hissəsi günahsız heyvanların qanını tökən, bir hissəsi qanlı mənzərəyə baxıb zövq alan, məntiqsiz pomidor yarışmaları, rüsvayçı karnavallar keçirən cəmiyyətlər heç öz adətlərindən utanmırlar?

Nə qədər desən misal gətirmək olar və özümüzə sual olaraq veriləsi "niyə?"lər çoxdur. Bütün faktlar da göstərir ki, qorunmaq və milləti yaşatmaq üçün milli özünüdərk tərbiyəsinə ciddi ehtiyac var.

Nədir milli özünüdərk? O, bir neçə mərhələdən keçərək formalaşan ən ali duyğudur. Dünya xalqları arasında şəxsiyyət vəsiqəsidir. Gücdür, qüvvədir ki, insanın başını göylərə ucaldır.

Onun *birinci* pilləsi insanda milli ruhun yaranıb formalaşması mərhələsidir. Bu mərhələnin bünövrəsi insan dünyaya gəldiyi gündən qoyulur (bəlkə də, bir az əvvəl). Ana öz ruhunu südü ilə övladına köçürür. "Anasına bax, qızını al", "Anası gəzən ağacı balası budaq - budaq gəzər", "Südlə girən sümüklə çıxar" kəlamları, "Halal süd əmmiş" ifadəsi yəqin ki, buradan qaynaqlanır.

Vay halımıza ki, ana başqa millətdən, məxsusən Muğdusi Akopgil tərəfdən ola. Elm sübut etmişdir ki, ananın duyğuları, məhəbbət, nifrət hissləri hələ uşağın öyüd - nəsihət almaq yaşı çatmamışdan südlə keçir və "dolanıb qanı olur".

Ailədə uşağa xalqın yaratdığı pedaqoji tələblərlə yanaşılırsa, o, ana dilində dil açır və neçə kənar dil öyrənsə də əsas danışıq dili ana dili olursa, xalqın yaratdığı folklor vasitələrindən (atalar sözü, məsəl, bayatı, düzgü, yanıltmac, nağıl və s.) bəhrələnir və yeri gəldikdə istifadə edirsə, milli musiqini dinləyib, milli ədəbiyyatı oxuyub zövq alırsa, xalqının adət - ənənələrinə hörmətlə yanaşır və onlara yaşına uyğun tərzdə əməl edirsə, demək, o, ruhən milli kökə bağlanır.

Milli özünüdərkə gedən yolun *ikinci* pilləsi şəxsi özünüdərkdir. Ağlı başında olan, həddi buluğa çatmış hər kəs özünü dərk etməlidir. Papağını qarşısına qoyub öz -özünə sual verib cavab almalıdır:

-Mən kiməm?

-Ulu babam, yeddi nəslim kimdir?

-Hansı xalqın nümayəndəsiyəm?

-Hansı dövlətin vətəndaşıyam?

-Mənsub olduğum dövlətin dünya dövlətləri arasında mövqeyi necədir?

-Mənsub olduğum dövlət qarşısında vətəndaşlıq borcum nədən ibarətdir?

-Valideynlərim və mənsub olduğum xalq qarşısında borcum nədən ibarətdir?

-Ailəm, xalqım, dövlətim qarşısında borcumu ödəmək üçün əqli, mənəvi, fiziki qüvvəm yetərincədirmi? və s.

Özünüdərk hər kəsin özünü tanıması və həyatdakı, cəmiyyətdəki yerini dərk etməsidir. Bu zaman başa düşürsə ki, qüsurları var, özünütərbiyə ilə məşğul olmalıdır.

Ulu öndər H.Ə.Əliyevin anadan olmasının 85 illiyinə ithaf olunmuş "İdeologiya və mənəviyyat" adlı kitabda özünüdərkdən danışarkən yazılır ki, özünüdərk şəxsiyyətin özünü, öz "mən"liyini, öz imkanlarını (fiziki, intellektual, mənəvi, iradi), keyfiyyətlərini, əqli –mənəvi yönümünü, maraq və arzularını və s. əhatəsində olan insanların üstün və çatışmayan cəhətləri ilə, eləcə də özünün keçmiş təcrübəsi ilə müqayisə etməklə yaranan idrak prosesidir; şəxsiyyətin həyat və fəaliyyətinin, davranışının əsas tənzimləyicisidir. Özünüdərk, özünüqiymətləndirmə prosesi ilə əlaqəlidir. Lakin onlardan çox –

çox dərin prosesdir. İnsan özü barədə təkcə özünümüşahidə və özünüqiymətləndirmə nəticəsində məlumat toplamır, eyni zamanda xarici mənbələrdən, o cümlədən əhatə olunduğu həyat tərzini və fəaliyyət üsullarını qiymətləndirməklə məlumat toplayır.

İnsan uşaqlıq dövründən özünüdərkə başlayır. Yeniyetmə dövründə özü barədə daha çox biliklər qazanır. "Mənəvi mən" (psixoloji qabiliyyət, xarakter, mənəvi keyfiyyətlər) bu vaxtdan yaranmağa başlayır. Ədəbiyyat, incəsənət (teatr, kino), televiziya şəxsiyyətin sosiallaşması prosesini sürətləndirir. Onun "Mən necəyəm?", "Məndə çatışmayan nə var?", "Mən necə olmalıyam?", "Mənim ətrafdakılardan üstün cəhətim nədən ibarətdir?" və s. suallar məhz yeniyetməlik dövründən başlanır.

Özünüdərk, insanın idrak fəaliyyəti üzrə müəyyən təcrübə (bacarıq, vərdiş, hüquqi bilik əldə etməyə qadir olmaq) qazanılmasını nəzərdə tutur. Özü barədə bilik əldə etməklə bağlı özünüdərk insanın özünüinkişaf, özünütəkmilləşdirmə üzrə sonrakı inkişafına fəal təsir göstərir (24,s. 46- 47).

Özünü dərk edən, ruhunda, qanında milli mənsubluğunu duyan və millətinə hörmət bəsləyən şəxs artıq milli özünüdərk məqamında olur. Nümunə: İki yüz ildən artıqdır ki, Azərbaycanda məskunlaşmış malakan icması var; İsmayıllıda İvanovka, Gədəbəydə Saratovka, Cəlilabadda Pakrovka... Onlar ölkə əhaləsinin say tərkibinə görə çox deyillər. Milli ruha, milli özünüdərkə gəldikdə iki əsr ərzində nəinki assimilyasiyaya uğramamışlar, əksinə, özlərini təsdiq etmişlər: ana dillərini, dini əqidələrini, adət - ənənələrini (bayramlar, toy, yas), inşaat, mətbəx mədəniyyətlərini, milli yeməklərini, milli musiqilərini, xalq mahnı və rəqslərini, bütün məişət özünəməxsusluqlarını qoruyub yaşatmışlar. Ruhən və mənən malakan olaraq imzalarını Azərbaycanın bir neçə bölgəsinə və tarixinə yazmışlar. İndi də yazmaqdadırlar. Məgər onlar qloballaşma dövründə yaşamırlar? Yaşayırlar! Daim müasir olmuşlar və bu gün də müasirdirlər, amma malakan olaraq qalırlar. Çünki milli kökdən ayrılmırlar, ona bağlıdırlar, qidanı ondan alırlar.

Əvvəldə dediyimiz kimi, həyatın qanunu da belədir! “Ayağı yerdən ayrılanın başı göyə dəymir, yerə dəyir”.

Ruhumuza, kökümüzə daha yaxın olan başqa bir misal: 1957 –ci ildən bu yana doğma yurdundan –Gürcüstanın Axısxa mahalından Qazaxıstana, sonra Özbəkistana sürgün olunmuş, 1999 –cu ildə qaçıb Azərbaycana pənah gətirmiş Axısxa türkləri öz milli varlıqlarını sınmadan, əyilmədən, ucalıqla yaşatmış və qoruyub saxlamışlar. Dayanmadan Vətənə qayıtmaq uğrunda mübarizə aparırlar. Bu, hünərdir və milli özünüdərk zirvəsidir.

Amma milli özünüdərk, keçmişə bağlılıq boş - boşuna öyünmək deyil, gözəllikləri yaşatmaq, böyüyən nəslə və dünyaya təbliğ və təlqin etmək, qüsurları aradan qaldırmaqdır. Qüsursuz insan olmadığı üçün qüsursuz xalq da yoxdur və ola bilməz. Böyüklük onu başa düşmək, tərəzinin müsbət yüklü tərəfini ağırlaşdırmaq, mənfiləri sıradan çıxarmaqdır. Bu nöqtədə milli özünüdərk vətənpərvərliklə birləşir.

M.F.Axundov, H.B.Zərdabi, A.A.Bakıxanov, S.Ə.Şirvani, M.T.Sidqi, C.Məmmədquluzadə, A.Səhhət, M.Hadi, M.Ə.Sabir, N.Nərimanov və digər görkəmli maarifçilərin fəaliyyəti, mübarizəsi məhz milli özünüdərkin nəticəsi idi. Bu sırada təhsilsiz, diplomsuz ziyalıların da adını çəkməliyik. Məsələn. H.Z.Tağıyevin Azərbaycan övladlarına ölkədən kənarda təhsil almaq üçün maddi vəsait ayırması, qızların təhsilsizliyindən yaranan fəsadları aradan qaldırmaq üçün məktəb açması, səfərlərində özünü qeyri millətlərə böyük xalqın nümayəndəsi olaraq tanıtması, beləliklə də millətini təbliğ etməsi milli özünüdərkdən irəli gələn faktlardır. Sözə qüvvət üçün misal:

Tağıyev Parisə səfərlərinin birində nahar etmək üçün restorana gedir. Çox da dəbdəbəli geyinmədiyinə görə, ona deyirlər ki, bura dövlətlilər üçündür, yolun o biri tərəfində münasib yeməkxana var, oraya müraciət edə bilərsiniz. Onda Tağıyev özünü təqdim edir və nahardan sonra bir kisə qızıl verib deyir: Yüz il ərzində mənim ölkəmdən kim buraya müraciət etsə, onun haqqını ödəyirəm.

90 - cı illərdə Parisdə olmuş iki azərbaycanlı rəssam təsadüfən həmin restoranda nahar etmək istərkən menyudan yemək seçəndə, xidmətçi onlardan hansı dildə danışdıqlarını, hansı ölkədən olduqlarını soruşur. Az keçməmiş restoran sahibi gəlir. Onları dəbdəbəli masalardan birinə dəvət edir və deyir, nə istəyirlər, buyursunlar; stolun haqqı çatıb. Bizimkilər təəccüblənib soruşanda o öz atasının söylədiyimiz əhvalatla bağlı vəsiyyətini danışır (Burada fransızın hallallığı da diqqətəlayiqdir.).

Başqa bir misal: Tağıyev Parisdə faytona əyləşib gedəcəyi ünvanı söyləyir. Fayton hərəkətə gəlir, amma başqa istiqamətə yön alır. Hacı yolu düz seçmədiyini faytonçuya başa salmaq üçün arxadan çəliyinin ucu ilə yavaşca onun çiyninə vurur. Faytonçu özünü təhqir olunmuş hiss edir. Düşüb əl - qol açа -aça söylənir. Bu, Tağıyevə milli baxımdan güclü təsir edir. Bakıya qayıtdıqdan sonra əhvalatı danışıb deyir: "Bizdə adamın lap boynunun kökünə də vursan, sənə səcdə edəcək. Camaatımızda bu cür özünə hörmət yaranandan sonra həyatımız da başqa cür olacaq"(8,s. 89).

Bəli, bu, milli özünüdərkdir! Hər iki üzü ilə.

Bu gün Azərbaycan təhsili dünya təhsili səviyyəsinə çatmaq üçün yenidən qurulur. Ölkədə yüksək intellektə malik savadlı, bacarıqlı, geniş dünyagörüşlü mütəxəssislər yerişdirmək üçün imkanlar yaradılır. Yeni təlim texnologiyaları tətbiq edilir, günün tələbinə uyğun proqram, dərslik, dərs vəsaitləri hazırlanır, yeni məktəblər tikilir, təhsil sistemi kompüterləşdirilir. Özünü dərk edən hər bir ailənin övladı bu imkanlardan maksimum faydalanır. Təəssüflə demək lazımdır ki, kütlə psixologiyası da var. Əvvəldə qeyd etdiyimiz kimi, həm məktəb - ailə - ictimaiyyət bağlarının qırılması, həm də elektron informasiya vasitələri, sarı mətbuat mənəviyyata xələl gətirən şoular və s. ümummilli mənafeyə tərbiyə yönündən ziyan vurur.

Hazırda dünyanın müxtəlif yerlərində də böyüyən nəslin mənəviyyatına ziyan gətirən vasitələrlə bağlı həyəcan təbili çalınmaqdadır. Uşaq, yeniyetmə və gənclərdə humanizm hisslərinin zəifləməsi, onların qaba hərəkətlərə, ziyanlı vasitələrə meylliliyi, özlərini lazım olduğundan artıq sərbəst hiss etmələri,

bütün ətrafa - cəmiyyətə, ailəyə biganəliyi, aqressiya, intihara cəhd və s. yuxarıda saydığımız qlobal təsirlərin təzahürüdür.

Müxtəlif ölkələrdən insan mənəviyyatına iki yöndən ağır zərbə vuran - 1) qatilliyə, qaniçənliyə yönəldən; 2) bivec, biganə narkomana, düşkünə çevirən serillar ixrac olunur. Dünyanın super dövləti ABŞ - da da belə filmlər çəkilir. Amma mənbələrdə göstərilir ki, Amerika və Avropa teleelitası uşaqlarına özlərinin istehsal etdiklərinə baxmağa icazə vermirlər. Öz uşaqlarına televizor qarşısında yalnız müəyyən qədər vaxt keçirməyə və yalnız sakit və ədəbli verilişlərə baxmağa vaxt ayırırlar.Məsələn, Amerikada bu vaxt cəmi iki saatdır; özü də bir oturuma yox. Çox gözəldir ki, ölkəmizdə də ailələrin övlad-uşaqla birlikdə baxıb "istirahət" etdikləri serialların nümayişinə son qoyuldu. Amma heyvani hisslərlə dolu,anlaşılmaz, eybəcər qəhrəmanlarla səciyyələnən, nə nağıla, nə əfsanəyə nə də həqiqətə bənzəməyən cizgi filmləri problem olaraq qalır və bəzi kanallarda hər gün uşaqlara "hədiyyə" olunur. Nədənsə nə aidi redaksiya, nə də şirkət rəhbərliyi seçimin düzgün olmadığının fərqinə varmır. Demək, yükün ağırlığı yenə də məktəbin çiyninə düşür. Məktəb qəbul etdiyi şagirdlərin tərbiyəsi ilə yanaşı, yenidəntərbiyəsi ilə də məşğul olmalıdır. Yenidəntəbiyənin isə nə qədər çətin olduğunu, hər zaman yüksək nəticə vermədiyini hamı bilir.

Məktəb təcrübəsini müşahidə və ixtisasartırma kurslarına gələn müəllimlərlə apardığımız sorğunun nəticələri göstərir ki, pedaqoji kollektivlərdə tərbiyəvi işlər sarıdan sözün böyük mənasında "azadlıqdır". Uşaqların asudə vaxtı əlavə hazırlığa gedir. 20 Yanvar, Xocalı soyqırımı və Novruz bayramlarından başqa, növbənöv sinifdənxaric işlərdən heç birinə, demək olar ki, müraciət olunmur. Rəngarənglik olmadığından uşaqlar adı çəkilən tədbirlərə də artıq protokol qaydası kimi baxırlar. Halbuki səhərciklərin, ədəbi - bədii axşamların, oxucu konfranslarının, müzakirələrin, disputların, görüşlərin, viktorinaların, müsabiqələrin, sərgilərin, sərbəst söhbətlərin, dərnək məşğələlərinin, gəzintilərin, ekskursiyaların, yubileylərin müstəsna tərbiyəvi

əhəmiyyəti var və onlar hamısı sinifdənxaric oxu ilə sıx bağlıdır ki, o da "dəbdən" düşüb.

Bəs necə olsun? Axı, böyüməkdə olan nəsil tədriclə inana bilər ki, onun mənsub olduğu millət üçün varlığı, gərəkliyi yalnız test hazırlığından asılıdır. Bu, yolverilməzdir. Ona görə də hər şeydən əvvəl məktəb - ailə - ictimaiyyət birliyi ciddi şəkildə bərpa edilməlidir. Düzdür, cəmiyyət çox dəyişib, şagirdlərin məktəbdə aldığı tərbiyə ilə həyatda gördükləri uyğun gəlmir, amma başqa çarə də yoxdur. Cəmiyyət maariflənməlidir. Necə? Bunun iki yolu var:

1) Əvvəlki illərdə olduğu kimi, məktəblərdə valideyn lektoriyaları fəaliyyət göstərməlidir. Ailələrə pedaqoji biliklər verilməli, günün tələbləri yönündən uşağa yanaşma tərzləri aşılanmalıdır, ümummilli mənafe kontekstində fərdi mənafelərin qorunma və ümumiyə yönəlmə istiqamətləri öyrədilməli, faydası başa salınmalıdır.

Bu işin sistematikliyi və müntəzəmliyi zərurətininin çiyinlərinə düşdüyünü duyub dərk edən, bilavasitə can yandırmalı və dönmədən, "usandım" demədən çalışmalı olan məktəb personalı -uşaq təşkilatı rəhbəri, sinif rəhbərləri, kitabxana işçiləri, tərbiyə işləri üzrə direktor muavinləri, direktor və bütün kollektiv planlı şəkildə əlbir fəaliyyət göstərməlidir. Hər kəsin gördüyü iş həmkarların hamısının işi ilə qaynaqlanmalıdır. Fikrimizcə, məhz bu təqdirdə məktəb -ailə tandemini bərpa etmək olar.

2) İctimaiyyətlə əlqəyə gəlincə, hər təhsil ocağı yerləşdiyi mikrorayon çərçivəsində ictimaiyyəti ətrafına cəlb edə bilər. Bunun yolu məktəbin nüfuzundan və təşəbbüskar valideynlərlə iş birliyindən keçir; onlarla əl -ələ verib mötəbər ağsaqqal və ağbirçəkləri, təqaüdçüləri məktəb tədbirlərinə, yığıncaqlara dəvət etmək, həm şagird, həm də müəllim kontingenti ilə ünsiyyətlərini yaratmaq mümkündür.

Nümayəndələr elə ilk dəvətdən gərəkliklərini görüb, duyub həvəslənər, dədə -babadan qalma vərdişlərilə böyüyən nəslin düzgün istiqamətdə pərvərişinə kömək edərlər. Eləcə də möhkəm özüllü tarixi mexanizm yenidən işə düşər, yaş

əndazəsini adlayıb hamının qayğısına çevrilər. Nəticədə şagirdlər məktəbdən kənarda da qayğı ilə əhatələnərlər.

Bəs dəvətlər nə vaxt ola bilər? -Müzakirələr, görüşlər, bayramlar, müvafiq fənn axşamları və digər tədbirlər keçirilərkən. Bu zaman onlar xatirələr danışar, çıxış edər, hansısa məsələyə münasibət bildirə bilərlər. Beləliklə, pedaqoji prosesə daxıl olarlar.

Böyüyən nəslin həyati problemləri, mənəvi dünyası, özünüdərki ilə bağlı həyəcan doğuran bədii əsərlər yaranır. Belə əsərlər məktəbin diqqətindən kənarda qalmamalı, müəllimli –şagirdli oxunmalı, valideynlər, ictimaiyyət nümayəndələri, imkan varsa, müəlliflə birgə müzakirə olunmalıdır.Məsələn, millət vəkili, yazıçı Hüseynbala Mirələmovun həm bədii, həm də publisistik əsərləri birmənalı şəkildə bu istiqamətdədir. Təkcə "Mənəviyyatın ekologiyası, jaxud iki od arasında" məqaləsi sanki dərdləri tərpətdi. Mötəbər qələm əhli yer –yerdən mətbuatda onun səsinə səs verdi. Sonradan bir kitabda cəmlənmiş bu səslər on altı çap vərəqi həcmindədir və hər birinin dediyimiz tərkiblə kollektiv müzakirəsi məqbuldur.

Hüseynbala müəllim "iki od arasında" deyərkən nəyi nəzərdə tutur? Mənəviyyatlar hansı səbəbdən ekoloji böhrana düçar olub? Diqqət yetirək:

"Azərbaycan müharibədən çıxmayıb, hələ torpaqlar işğal altındadır. Sadəcə təmas xəttində nisbi sakitlikdir. Ancaq məndə bir əminlik var ki, biz torparlarımızı erməni faşistlərinin işğalından azad edəcəyik. Tarixən əksər xalqlara qarşı ədalətsizliklər olub və tez –gec həmin xalq öz haqqını qanı bahasına olsa belə, qaytarmışdır. Mən daha təhlükəli müharibə haqqında danışmaq istəyirəm. Bu, mənəviyyatımızda gedən müharıbədir. Mən hiss edirəm ki, hər gün, hər saat mənəviyyatımızda aşınma gedir və biz yad təsirlərin işğalına məruz qalırıq. Azərbaycan müsəlman ölkəsidir. Müsəlmançılıq adlanan bir termin var. Çoz təəssüf ki, son vaxtlar bu termini daha çox mənfi mənada işlədirlər. Biz Məhəmməd ümməti deyilikmi? Bu, onu göstərir ki, cəmiyyətdə ekoloji tarazlıq pozulmuşdur. Bəlkə də, bir qədər sərt danışıram. Hər halda günümüzün reallıqları fikirlərimi daha həyəcanla ifadə etməyə mənə əsas verir.

Söz silahdır. Özü də ən qüdrətli silah. Bu gün yazıçıların kəsərli sözünə, birbaşa sözünə, açıq sözünə cəmiyyətin ehtiyacı var. Qəlbində vətəndaşlıq yanğısı olmayanlar günümüzün reallıqlarına biganə qala bilər. Ancaq unutmayaq ki, vətəndaşlıq yanğısı cəmiyyətin övladı olan yazıçının mənəvi pasportudur. Bundan imtina edən yazıçı vətəninin, xalqının oğlu deyil. Yaxud o, artıq özünün mənəvi kökləri ilə onu böyüdən, onu tanıyan, qəbul edən xalqdan çoxdan ayrılmışdır. Onlar artıq özlərini dəfn etmişlər.

Yuxarıda "ekoloji tarazlıq" ifadəsini işlətdim. Qayıdıram həmin məntiqə...

Əlbəttə, bu qeydlərimdə təbiətlə canlı aləm arasında münasibət haqqında danışmaq fikrində deyiləm. Mən belə hesab edirəm ki, cəmiyyətlə onu təşkil edən insanlar arasındakı münasibətlər daha ciddi ekoloji problemlər doğurur. Artıq həmin termini mən bir qədər məcazi mənada işlədirəm.

Təbiətin özündə hər şey ölçülüb biçilmişdir. Tanrı kainatı son dərəcə dəqiq nizamlanmış zaman daxilində elə yaratmışdır ki, heç bir düzəlişə yer qalmamışdır. Zənnimcə, insanlar da, ayrı –ayrı fərdlər də cəmiyyətlə münasibətdə, konkret desək, bir –birilə münasibətdə həmin Tanrı nizamına söykənməlidirlər. Əgər diqqət vermisinizsə, güllərin, çiçəklərin üstünə qonan kəpənəyin qanadlarındakı xalların nizamlı düzülüşünə, hansı qnadda hansı xal hansı ölçüdədirsə, digərində də belədir. Şüurlu insan öz münasibətlərini gündəlik həyatında tənzimləyərkən nə üçün səhvlərə yol verir? Nəyə görə həyatda yaşarılıq haqqı qazanmış mənəvi dəyərlər tapdalanır? Nə üçün insanlar hər hansı bir məsələni aydınlaşdırmaq üşün bir –biri ilə nəiki əsəbi danışır, hətta məsələ ölüb –öldürməyə qədər gedib şıxır.

Televiziyanın gecə kanallarında gösrərilən kriminal xronikalara baxarkən çəkişmələr üstündə baş verən cinayətləri, faciələri, ölümlə nəticələnən qeylü –qalları görəndə dərin təəssüf hissi keçirməyə bilmirsən. Belə hallarda "insanın varlığı, onun mahiyyəti nədən ibarətdir?" sualına cavab axtarmalı olursan. Axı nə üçün insan özü özünə qəbir qazmalıdır?

Bəli, mən elə belə də hesab edirəm. Kiminsə qətlinə fərman vermək özünün "əcəl zəngini" çalmaq deməkdir.

Azərbaycan keçmiş postsovet məkanına daxil olan ölkələrdən özünəməxsus xüsusiyyətləri ilə fərqlənir. Biz mənəvi mentalitet baxımından şərqliyik. Asiya ölkəsiyik. Azərbaycanın min illik mənəvi sərvətləri tarixi köklərin üstündə bərqərar olmaqla Şərq aləmindən bəhrələnmişdir. Şərqin misilsiz sənət incilərinin yaranmasında Azərbaycan mütəfəkkirlərinin, azərbaycanlı təfəkkür tərzinin böyük xidmətləri olmuşdur. Ancaq bir həqiqəti də danmaq olmaz ki, azad bazar idtisadiyyatına keçməkə biz Avropaya qapı açdıq. Avropa adət - ənənələri, Avropa düşüncə tərzi çox sürətlə mənəviyyatımıza daxil olur. Ədalət naminə etiraf etməliyik ki, biz bundan imtina edə bilmərik.

Bu gün Qərbi Avropanın bir çox üstünlükləri var ki, biz ondan faydalanmalı, cəsarətlə ona doğru getməliyik.

İki od arasında... Bu, adi epitet deyil. Elə bu qeydlərimin içərisində də həmin üç sözü işlətməklə, bədii –emosional çalarların effektini artırmaq məqsədi güdmürəm. Mən həqiqətən iki dünyanın arasında, iki düşüncə tərzinin qovuşuğunda əziyyət çəkən xalqımı görürəm.

Azadlıq və demokratiya. Bu şirin nemətin özünü də, görünür, cana fayda verən həblər kimi qəbul etmək lazımdır. Azadlıq və demokratiya adı altında böhtan və şantaja rəvac verənlər özlərinin kimliyi haqqında da yalansız danışa bilməzlər. Ancaq unutmasınlar ki, cəmiyyət tez –gec ağı qaradan seçə bilir. Bizdən keçib gedən tarixin şahidləri kimi bu həqiqətləri dana bilmərik. Bütün təəssüfləri doğuran amilləri bir –bir necə sadalamaq olar? Azərbaycanda iqtisadiyyatın inkişafı üçün yaradılmış şərait investisiyaların qoyuluşuna münbit zəmindir. Bütün ölkə tikinti meydanına bənzəyir. Amma təəssüf ki, Azərbaycanın tarixi –memerlıq ənənələri unudulur. İnsanı düşündürən, insana mənəvi –estetik zövq bəxş edən milli ornamentlər, naxışlar gözə dəymir.

Mən istəyirəm ki, Azərbaycanda hər hansı bir memarlıq abidəsi tarıxi köklərə, ənənələrə söykənsin. Azərbaycana gələn hər hansı bir qonaq önündə dayanıb baxdığı abidədən hansı ölkədə olduğunu, hansı xalqın arasında dayandığını dərk etsin.

Ümumiyyətlə, bütün bunlar haradasa bizim mənəvi aləmimiz haqqında ilkin formal təsəvvür deməkdir. Ən dəhşətlisi budur ki, mənəviyyatın qurulması prosesi ya çox ləng gedir, ya görünmür, ya da bu sahədə, əksinə, enən xətlə inkişaf daha çox diqqəti çəkir.

Bakı Azərbaycanın paytaxtıdır. Azərbaycanın ən böyük elm, mənəvi sərvətlər xəzinəsi, intellektual bazası burada cəmlənmişdir. Ən böyük teatrlar, kino salonları, muzeylər, incəsənət salonları bu şəhərdədir, Bakıda milyonlarla insan yaşayır və işləyir,Azərbaycanın əhalisinin yarıdan çoxu Bakı ilə gündəlik təmasdadır. Bəs onda nə üçün gün ərzində muzeylərin, incəsənət salonlarının, rəsm qalereyalarının qapıları açılmır, yaxud bu yerlərə təkdənbir adamlar gəlirlər. Təbiidir ki, Bakıda restoranlar, barlar, şadıiq evləri, müxtəlif yönümlü və istiqamətli istirahət ocaqları da var. Ocaq dedim... Yeri gəlmişkən "ocaq" anlayışı bizim xalqımız arasında həmişə müqəddəs hesab olunub. Hətta keçənlərimiz and içəndə ocağı günəşə, suya bərabər tutublar. Ancaq gəlin görək özlərini ocaq adlandıran həmin "istirahət" evləri bu müqəddəsliyi qoruya bilirmi? Hay –küyün, daha çox bayağı musiqinin təsiri altında dumanlıqlar içərisində xumarlanan gənclərin bir çoxu –mən onları bəlkə də qınamazdım, çünki insan cəmiyyət tərəfindən nəzarətdə olmadıqda onun təbiətindəki mənfiliklər daha çox qabarır, üzə çıxır –bu şəraitdə istirahət evlərində, restoranlarda yaradaılmış əxlaqsızlıq çəraitindən "bəhrələnməkdən" vaz keçmirlər...

...Yaxşı olar ki, bu cür hallarla aparılan mübarizə "kompaniya" şəklində olmasın. Bu, bizim həyatımızın gündəlik normasına çevrilməlidir.

Azərbaycan İpək Yolunun üstündədir. İpək Yolu ilə Azərbaycan iqtisadiyyatının dirçəlişinə təkan verə biləcək imkanlar gəlir. Ancaq İpək Yolunun üstündə olmaq həm də o deməkdir ki, bu yolla mənəviyyatımıza yad təsirlər, daha qorxulu meyllər də yol açа bilər.

Təsir əks təsirə bərabərdir. Biz bütün bunlara qarşı hazır olmalıyıq. Qloballaşmaya doğru gedən dünyadan imtina edə bilmərik. XXI əsr xalqların, sivilizasiyaların, fərqli mədəniyyətlərin bir –birinə qovuşacağı əsr hesab olunur.

Şəxsən mən özüm Azərbaycanın gələcəyini bunlarsız təsəvvür edə bilmirəm.

Avropa ölkələrindəki həyat keçmiş sovet dövründə bizə təqdim olunduğu kimi deyil. Bu məsələlərin bir çoxu öz həllini çoxdan tapmışdır. Hər kəs necə istirahət etməyi, öz vaxtını necə keçirməyi və onun yerini yaxşı bilir.

Azərbaycan mədəniyyətinin inkişafına dövlət xüsusi qayğı göstərir. O cümlədən teatrlara da. Çox təəssüf ki, klassik əsərlərin, hətta sənət şedevrlərinin nümayiş olunduğu salonlar çox vaxt boş qalır. Nə üçün insanlar mənəvi ehtiyac namınə teatra doğru addım atmırlar.

Bir daha yada düşür ucuz hay –küy və şouların göylərə büləndolan sədaları. Mən şounun əleyhinə deyiləm. Ancaq hər halda bu şoular da elə təşkil olunmalıdır ki, adamlar daha çox mənən istirahət etsinlər.

Özəl televiziya və radiolarda, xüsusilə şou proqramlarda Azərbaycan dilinin başına açılan oyunlar adamın qəlbini dağıayır. Dilə bu cür münasibət, zənnimcə, mənəviyyatımıza vurulan ən ağır zərbələrdən hesab olunmalıdır.

Savadsız şou aparıcılarının şit hərəkətləri xalqın mənəvi tərbiyəsində şikəst məktəb vəzifəsini icra edir. Dilimizin saflığı uğrunda mübarizəmiz mənəvi saflığımız uğrunda mübarizəmizlə eyniyyət təşkil edir. Bir qədər əvvəl Azərbaycanın müsəlman ölkəsi olduğunu yada salmışdım. Bu mənada, dinimizin təmizliyi uğrunda mübarizə də xüsusi əhəmiyyət kəsb edir. Qeyri dinlərin açıq və yxud gizli emissarları meydan suladıqları kimi, İslam dininə xələl vuran müxtəlif təriqət adamları da İslam dininə az zərbə vurmurlar.

Bütün bunlar göstərir ki, indi Azərbaycanda dəhşətli mənəvi müharibə gedir. Mənəviyyatımızı işğal etməkdə olan yabançı meyllər Qarabağ müharibəsinin vurduğu zərbədən daha təhlükəlidir.

Yazıçı dostum, hardasan, danış! Mən səni eşitmək istəyirəm. Bəlkə, nəyi isə düz demədəm?

Azərbaycan alimi, elmi tədqiqatlarından bir günlüyə də olsa ayrıl. Başını qaldır, səni əhatə edən mühiti saf –çürük elə. Sözünü de, anamızın öyrətdiyi dili hələ ki, unutmamışıq.

Böyük Öndərimizin ruhu başımızın üstündədir. O, Azərbaycanı bizə tapşırıb. Onun mənəviyyatını qorumaq bizim borcumuzdur.

Qazı, suyu, işığı hansısa obyektiv və ya subyektiv bir səbəbdən kəsilən adamlar haray salır. Cüzi çətinliyə belə dözümsüzlük göstərirlər.

Mənəvi eybəcərliyi, əxlaqsızlığı, üstümüzə yeriyən mənəvi işğalı açıq - aşkar görən adamlar susur, etinasız –etinasız keçib gedirlər.

Mən bu səsi eşidirəm. Azərbaycan mənəviyyatının üstündən keçib gedən addım səslərini."

23.04.2004

Hüseynbala müəllim dedi ki, mənəviyyatın qurulması prosesi dəhşətli dərəcədə ləng gedir, görünmür; hətta enən xətt üzrə hərəkətdədir. Və tənəzzülə düçar olmuş mənəviyyatımızı himayə etmək üçün yazıçıları, alimləri harayladı. Müəllimlərə heç nə demədi. Amma sadə həqiqətdir ki, bəzi problemlərin rişələri məktəbdən başlanır; olmaması üçün acar da məktəbin əlindədir. Bir misal: Ekranda əlaçı universitet tələbələri ilə söhbət vardı. Onlardan biri dedi ki, fikrini ingilis dilində daha yaxşı ifadə edir; Azərbaycan dilinin imkanları zəifdir.

Acınacaqlı fakt idi; dilin ünvanına deyilən sözə görə yox, tələbənin nitqinin doğma ana dili yönündən kasıblığına görə. Təcrübə göstərir ki, o, on bir illik təhsil illəri ərzində əlinə əlavə bədii ədəbiyyat almayıb, sinifdənxaric oxu ilə məşğul olmayıb. Lap məşğul olsa, nə oxuyub? Dilimizin bir misrada, cümlədə, bir bayatıda, atalar sözündə ifadə etdiyi kitab tutumlu məna imkanlarından xəbəri varmı? Xeyir. Və indi danışanda, yazanda söz tapmır. Ümumən, bu gün yetişən nəslin nitqi kasıbdır. Auditoriyada mühazirə zamanı bəzi tələbələrin adi sözləri başa düşmədiyinin dəfələrlə şahidi oluruq. Burada dilin günahı yoxdur. Dil dünya klassiklərinin nadir əsərlərini, müxtəlif səpkili mənbələri orijinaldan tərcümə gücündədir. Lakin bütün imkanları ilə işlənməmək səbəbindən leksik fondu arxaikləşir. Əlbəttə, mütaliəsizliklə yanaşı, həm də efir və ekranlardakı güclü təbliğatçı, fəqət əksərən savadsız aparıcıların, dəvət olunmuş söz bülbüllərinin, özünü jurnalist, şair, yazıçı, hətta elm adamı adlandıranların əməyi sayəsində! Onlar bir zamanlar rəvan, musiqili, şirin olduğu vurğulanan,

əruzu sığallayan, muğamı süsləyən Azərbaycan ədəbi dilinə düyünlər vurmaqla, orfoepik "səhvlərimizə" "düzəliş" verib onu kütlə dilinə, ləhcə səviyyəsinə endirməklə məşğuldurlar. Nəticə də qazanıblar.

Ekranlarda elmi –pedaqoji diskussiyalar yoxdur. Halbuki yalnız elliklə təhlil –tərkib olunandan sonra tətbiqə vəsiqə almalı problemlər var. Bəzi kanalların tərbiyəvi mövzulu verilişlərə müəllim dəvət etdiklərini də görmürük.

Əminliklə deyirik ki, onlar maarifçi proqramlara, elmi -kütləvi verilişlərə önəm versələr, daha yüksək reytinq qazanarlar. Amma diletant səviyyəsində, beyinləri düşüncədən məhrum edən şou tərzində deyil, mütəxəssiscəsinə, ağla, təfəkkürə, məntiqə söykənərək. Bu şərtlə, aparıcı və qonaqlar "hər ölkədən, hər dildən bir söz" dilində deyil, elmi-publisistik qüdrətə, zəngin leksikaya malik, son illərin əcaib orfoepik icadlarından uzaq, əsl alimlərin, əsl yazıçı və şairlərin, jurnalistlərin, aktyorların, nəhayət, adı böyük hərflərlə yazılası müəllimlərin qoruyub, yaşadıb inkişaf etdirdikləri, etik, estetik, məntiqi dəyərlər sahibi olan Azərbaycan ədəbi dilində danışsınlar.

Bu o demək deyil ki, dil durğun vəziyyətdə qalmalıdır. O, canlı varlıqdır; inkişaf etməli, zamanın səsinə səs verməlidir. Eləcə də ümummilli səvətdir. Dövlət atributudur.

Azərbaycan Respublikası öz dövlət dilinin inkişafını təmin edir. Ölkə Prezidenti "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" sərəncam vermişdir. Sərəncamda deyilir: "...son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsi diqqəti çəkir. Ədəbi dilimizin özünəməxsus inkişaf qanunauyğunluqlarına xələl gətirə biləcək yad ünsürlərin üzə çıxarılması və qarşısının alınması istiqamətində mütəxəssislər heç də həmişə çeviklik nümayiş etdirə bilmirlər. Nəticə etibarilə dövlət dilimizin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə biruzə verir.

Dilin böyük ictimai –siyasi hadisə və mənəvi həyatımızın mühüm amili olduğunu çox zaman nəzərdən qaçıran bəzi mətbuat orqanlarında, radio və

televiziya kanallarında ədəbi dil normalarının pozulması adi hal almışdır. Dublyaj edilən filmlərin, xarici dillərdən çevrilən elmi, bədii və publisistik əsərlərin tərcüməsi bir qayda olaraq yüksək estetik tələblərə cavab vermir, onlar sönük və yarıtmazdır, dilimizin hüdudsuz ifadə imkanları ilə müqayisə edilməyəcək qədər aşağı səviyyədədir. Küçə və meydanlardakı reklamlarda, afişalarda Azərbaycan dilinin ən adi leksik və qrammatik qaydaların pozulması təkcə dil mədəniyyətinin deyil, ümumi mədəni səviyyənin də arzuedilməz gösrəricisinə çevrilmişdir" (1).

Belə bir reallıqda tərbiyə işini düzgün istiqamətləndirmək və səmərəsini yüksəltmək üçün:

Əvvəla, "Məndən ötdü, qardaşıma dəydi, elə bildim saman çuvalına dəydi" prinsipinə - biganəliyinə son qoyulmalıdır. Biganəlik ən qorxunc mənəvi xəstəlikdir. İstər məktəb, istər ailə, istər ictimaiyyət məktəblilərin telefon və kompüterdən istifadəsini tənzimləməli, virtual oyunlardan, vəhşilik, qaniçənlik təlqin edən, əxlaqdan, ədəb - ərkandan uzaq filmlərdən, klip və videosüjetlərdən asılılığına imkan verməməlidir.

İkincisi, müəllimlər 45 dəqiqədən halallıqla istifadə etməlidirlər ki, şagirdlərin asudə vaxtını əlindən alıb, imkansız valideynlərin alın tərilə qazandıqları çörəyə ortaq çıxmasınlar.

Üçüncüsü, şagirdlərdə mütaliəyə həvəs yaradılmalı və inkişaf etdirilməlidir. Bütün televiziya kanallarında məntiqsizcəsinə eyni gündə və eyni saatda başlayan bilik yarışmalarına çıxan əlavə hazırlıqlı şagirdlərin bəzən ən sadə suallara cavab verə bilməmələri, ali təhsil alan tələbələrin bəsit leksikası, özünüidarə və cəmiyyətdaxili ünsiyyət qaydalarından bixəbərliyi, saymaqla qurtarmayan min dürlü məqamlar bunu tələb edir.

Dördüncüsü, məktəbdənkənar tərbiyə müəssisələri ilə əlaqələr güclənməlidir. Şagirdlərin yaş səviyyəsinə, mənəvi dünyasına, təlim materiallarına uyğun, ümummilli mənafeə xidmət edən konsert, tamaşa və filmlərə baxışlar, muzeylərə, sərgilərə, tarixi yerlərə, təbiətə kollektiv və qrup halında gedişlər təşkil edilməlidir. Hər tədbirin sonu müəllimin rəhbərliyi və

şagirdlərin fəallığı şəraitində keçən, ağıllı nəticələr doğuran müzakirələrlə tamamlanmalıdır.

Beşincisi, tərbiyə edənin şəxsi nümunəsi örnək olmaqla dini dəyərlərə, milli adət - ənənələrə və xalq pedaqogikası materiallarına daim istinad olunmalıdır. Təcrübə göstərir ki, böyüyən və gənc nəslin əksər hissəsi atalar sözü bilmir; hələ məsəl, layla, bayatı və digər mənəvi bağları demirik…

Altıncısı, həyati reallıq olaraq fərdlər birləşib ailə, ailələr nəsil, nəsillər tayfa, tayfalar xalq, xalqlar millət yaradır. Demək, hər bir fərdin müsbət və mənfi xüsusiyyətləri silsilə şəklində artaraq və ətrafa sirayət edərək millətin simasına çevrilir. Ona görə də, əvvəldə dediyimiz kimi, hər bir millətin ali xüsusiyyətləri ilə yanaşı, qüsurları da mövcuddur. Əgər biz tərbiyə prosesini ancaq müsbət nümunələr üzərində qursaq, lovğa, bacarıqsız, hər zaman "mən kimdən?" deyib özünə yer axtaran kütlə yetişdirərik. Qüsurlar, həyati gerçəkliklər təlim materiallarının yaratdığı imkandan asılı olaraq diqqətə çəkilməli, islahına kollektiv şəkildə yollar axtarılmalıdır. Bunun da ən yaxşı vasitəsi satira, yumor, xalq pedaqogikasında gen – bol istifadə edilən kinayədir ki, fərdi, qrup halında və kütləvi şəkildə keçirilən sinifdənxaric işlərdə daimi rubrikaya çevtilə bilər və çevrilməlidir.

Yeddincisi, insanın cəmiyyətdə birgəyaşayış qaydalarına tabe olması hava və su kimi vacibdir. Həmin qaydalar istər ailədə, istərsə də məktəbdə öyrədilməlidir. Lakin bu, hər şey deyil. Böyüyən nəslin normal formalaşması, hər kəsin özünü sərbəst, azad hiss etməsi üçün ta əyyami -qədimdən qadağalar da mövcuddur. Onlar üç cürdür:

1. *İlahi qadağalar* - Yaradanın icazə vermədikləridir ki, insan, ümməti olduğu dinin tələbilə onlara əməl etməlidir.

2. *Xalq adət - ənənələrilə bağlı qadağalar* - xalqın hər bir nümayəndəsi riayət etməyə borcludur; əks təqdirdə "əriyib" mutasiya olunacaq.

3. *Dövlət qadağaları* - Dövlət Konstitusiyasında təsbit edilmiş və tələb olunan vəzifələrə sözsüz əməl etməkdir.

Bunlardan üçüncüsü “Azərbaycan Respublikası Konstitusiyasının əsas ları”, “İnsan və cəmiyyət” fənlərinin tədrisi zamanı müəyyən qədər öyrədilir. Əvvəlki ikisinə isə müvafiq mövzularla bağlı hədis, yaxud atalar sözləri misal gətirilərkən qismən toxunulur. Bu işi bir qədər də qüvvətləndirmək lazımdır. Çünki qadağa azad və normal tərbiyə almış insanın pisliklərdən himayə olunmasıdır. Cəmiyyətin qorunması və inkişafı üçün stimul yaradan kəsərli vasitədir.

Faktların təhlili və təcrübə göstərir ki, qloballaşma şəraitində böyüməkdə olan nəsli milli özünüdərk mərtəbəsinə yüksəltməyin real şərtləri belədir. Həmin mərtəbəyə yüksəlmiş insanın qarşısında bir yol durur: *dünyada milli özünütəsdiq və dünyaya milli özünütəbliğ.*

3.Məktəbəqədər təhsil müəssisələrində milli özünüdərk tərbiyəsi

Qədim dövrlərdən günümüzədək şəxsiyyətin formalaşması problemindən danışan mütəfəkir simalar, dahi şəxsiyyətlər birmənalı şəkildə demişlər ki, tərbiyə işinə uşaq dünyaya göz açdığı vaxtdan başlamaq lazımdır. Bu barədə müqəddəs kəlamlar da var, xalq pedaqogikası nümunələri də, aforistik ifadələr də. Məsələn, İslam Peyğəmbəri (S) buyurmuşdur: "Uşaq yaşlarında öyrənilənlər daş üzərinə, böyük yaşlarında öyrənilənlər isə su üzərinə yazılan kimidir." Aqillərdən birinə məxsus olan aforistik ifadə isə belədir: "Uşaq suya bənzəyir, hansı qaba töksən, onun şəklini alar."

Uşaq gücsüz varlıqdır ki, necə formalaşıb boya - başa çatması onun özündən yox, əhatəsində olduğu mühitdən, imkan və vasitələrdən asılıdır. Uşağı əhatə edən əsas mühit ailə, ikinci vacib mühit isə bağçadır. Həyət, məhəllə dostluq və yoldaşlığı da mühitdir; lakin orada məqsədyönlü pedaqoji prinsiplər deyil, uşaqlıq dövrünün özünəməxsusluqları hakimdir.

Uşaq istər bağçaya getsin, istər məhəllə dostları ilə oynasın, nəhayətdə dönüş yeri evdir. O, bütün ruhi- mənəvi qidanı öncə ailədən alır. Elə isə müasir ailə məktəbəqədər yaş dövründə olan uşağa necə diqqət ayırır? Onun hərtərəfli inkişafı, o cümlədən milli özünüdərk ruhunda böyüməsi naminə nələr edir? Suallara cavab tapmaq üçün müasir Azərbaycan ailəsini qısaca səciyyələndirmək lazımdır və təəssüf ki, bundan ötrü ümumi məxrəc yoxdur. Çünki Azərbaycan ailəsi mənəvi cəhətdən əvvəlki stabil vəziyyətində deyil. Natamam, mübahisəli, söz-söhbətlə dolu ailələr çaxdur. Vəziyyətin belə olması ölkənin efir və ekranlarından hər gün nümayiş etdirilir. Demək, belə ailələr uşağın tərbiyəsinə vaxt ayıra, xüsusən müqəddəs amallarla böyüməsinə diqqət

yetirə bilməzər. Digər böyük ailə qrupunun içərisində isə onun hər işinə qarışan qüvvə var: yenə də televiziya. Uşaqlar körpə yaşlarından seriallara baxa - baxa böyüyürlər. Artıq onlara layla çalınmır, düzgülər, yanıltmaclar öyrədilmir, nəğmələr oxudulmur, nağıllar danışılmır. Belə uşaqlarda milli ruh epizodik səciyyə daşıyır və milli özünüdərk səviyyəsinə yüksəlməsi sual altındadır.

Əvvəlki bölmədə dediyimiz kimi, bir qrup valideyn qalır ki,onlar uşaqların milli ruhda tərbiyə alması, özünü millətin nümayəndəsi kimi dərk etməsi üçün əlindən gələni əsirgəmir, fəqət bu, çox azdır.

Bağçaya gəlincə, problemlə bağlı vəziyyəti öyrənmək üçün həm dövlət, həm də özəl bağçalarda müşahidələr apardıq; həmçinin müsahibə metodundan istifadə etdik. Müşahidələr göstərdi ki, bağçalarda milli ruh və milli özünüdərk istiqamətində işlər gedir, lakin hər bağçanın özünəməxsusluğu şəraitində. Və hər bağçada məsələyə müxtəlif yanaşma tərzləri ilə. Bu baxımdan ümumi və fərqli cəhətlər mövcuddur.

Ümumi cəhət odur ki, bütün bağçalarda dövlət atributları öyrədiilir, milli bayramlar, tarixi günlər qeyd olunur, uşaqlara xalq nağılları danışılır, vətən, ana mövzulu nəğmələr oxudulur. Bunlar hamısı məktəbəqədər təhsil müəssisələrində milli özünüdərk mühitidir.

İmkan və vasitələrə gəlincə, günün imkanla bağlı diqtə etdiyi birinci tələb tədris proqramlarından gəlir. Məktəbəqədər tədris müəssisələri üçün proqramda da bu imkanlar var və kifayət qədərdir. İkinci tələb maddi vəsaitdir. Maddi imkanları yaxşı olan bağçalarda tərbiyə prosesini müxtəlif əyaniliklərlə yüksək səviyyədə təmin etmək üçün imkan yaranır. Bu zaman imkan həm də vasitəyə çevrilir. Məsələn, əldə edilən əyaniliklər imkan verir ki, onların vasitəsilə problemlə bağlı işlər daha səmərəli aparılsın. Valideynlərlə əlaqə başda olmaqla folklor, xalq pedaqogikası materialları, ana dili, milli adət -ənənələr, etnoqrafik materiallar, ekskursiyalar və digər materiallar məktəbəqədər yaşlı uşaqların milli özünüdərk tərbiyəsi üçün sərfəli vasitələrdir. Yuxarıda qeyd etdik ki, bağçalarda bu vasitələrdən müxtəlif tərzdə

istifadə olunur. Məsələn, təcrübəsini öyrəndiyimiz Heydər Əliyev adına müasir təhsil kopleksinin bağçasında müdirin otağı qarşısında milli guşə yaradılmışdır. Guşədə milli libaslı kuklalar, mis qablar, mütəkkə, neft lampası və s. vasitələrlə qədim Azərbaycan evi təqdim olunur. Uşaqlarda nənə-babalarının yaşadıqları mənzil, məişət və həyat tərzi haqqında təsəvvür yaradilir.

Hər səhər hamının iştirakı ilə Dövlət himni oxunur, sonra uşaqlar öz qrup otaqlarına gedirlər. Otaqlardakı Dövlət bayrağı, gerb onları milli özünüdərkə səsləyir. Uşaqlar himni əzbər bildikləri kimi, bayraq və herbin də dövlət atributu kimi əlamətdar xüsusiyyətlərini öyrənir, onlara hörmət və ehtiram bəsləməyin vacibliyini dərk edirlər.

80 nömrəli bağçada təmir işləri getdiyi üçün milli guşə adına nəsə axtarmaq əbəs idi; amma müşahidələrdən aydın oldu ki, problemlə bağlı iş var. Proqramın tələbinə uyğun olaraq hər yaş qrupuna müvafiq tərzdə vətənpərvərlik nəğmələri, milli rəqslər öyrədilir, Azərbaycanın Şərqdə inkişaf etmiş ölkələrdən biri olması barədə qürur doğuran məlumatlar verilir. Ənənəvi olaraq uşaqlar dövlət himnini bilir, dövlət bayrağını tanıyır və onun üzərindəki işarələri izah edə bilirlər. Tarixi gün və milli bayramlar bağçada həmişə qeyd olunur; bu da uşaqların milli ruhda böyüməsinə və özünü millətin nümayəndəsi olaraq dərk etməsinə fayda verir.

Çağ Öyrətim İşlətmələri "Zanbağ" ana okulunda (bağça) isə bütün bunlar iki ölkənin timsalında təbliğ edilir.

Təcrübəsini öyrəndiyimiz bağçalar sırasında problem baxımından ən qabaqcıl iş tərzinə akademik Zərifə Əliyeva adına bağçada rast gəldik. Bağçada həm Azərbaycan, həm də rus bölməsi fəaliyyət göstərir. Hər iki bölmənin illik iş planında milliliyə xüsusi diqqət yetirilir. Açıq məşğələlər və kollektiv qarşılıqlı baxış üçün seçilən mövzular sırasında həm də uşaqlara milli özünüdərk ruhu aşılayan iş növlərinə yer verilir. Bir qayda olaraq gün bütün uşaqlar və tərbiyəçilərin dövlət himnini kollektiv oxuması ilə başlanır.

Qrup otaqlarının hamısında “Milli guşə” var. Guşələr zövqlə tərtib olunmuşdur; xalqın tarixi, mədəniyyəti və məişəti haqqında dolğun təsəvvür yaradır. Guşələrdə nələr var? Əvvəla, bütün qruplarda:

-Respublikanın xəritəsi.

-Dövlət bayrağı, gerb və himnin mətni.

-Ölkə Prezidentinin portreti.

-Azərbaycan xalçaçılıq məktəblərini təqdim edən rəsmlər.

-Miniatür xalçalr (həm hanada , həm də tamamlanmış).

-Milli məişət əşyaları (ya orijinalıIı, ya da kiçik fiqurlar şəklində).

-Milli çalğı alətləri (maket).

-Milli sənətkarliq nümunələri.

-Milli libaslı kuklalar.

-Usta, hazırladığı məişət əşyaları ilə birlikdə.

-Təndirə çörək yapan qadın fiquru.

-Muğam albomu (disklə birlikdə).

-Kiçik taxta lövhələr üzərində yandırma üsulu ilə milli mövzulu rəsmlər; məsələn, Azərbaycan qalaları.

-Araqçın.

-Buta.

Məktəbə hazırlıq qruplarında saydıqlarımıza əlavə olaraq:

- “Xalça və xalça məmulatları” (albom).

- “Arxeoloji abidələr” (albom).

- “Zərgərlik məmulatları” (albom).

- “Döymə və mis işləri” (albom).

- “Muğam” (disklə birlikdə albom).

- “Azərbaycan haqqında” (albom).

- ***“Azərbaycan”*** yazısının fonunda toxunmuş “Qız qalası” miniatür xalça və s.

Guşədəki bu vəsaitlər sadəcə nümayiş üçün deyil, həm də məşğələ zamanı istifadə olunan əyaniliklərdir. Proqram materialları da buna geniş imkan yaradır. Diqqət yetirək.

Orta qrup (3-4 yaş).Rəsm - aplikasiya

-Zolaq daxilində naxış.

-Kvadrat daxilində naxış.

-Dairə daxilində naxış.

-Bayraq (aplikasiya).

- "Süfrə" -kvadratı bəzəmə.

-Kuklanın donunu milli naxışlarla bəzəmək.

Ətraf aləmlə tanışlıq və nitq inkişafı

- "Bayramlar" mövzusunda müsahibə.

-Səməni becərmək.

- "Yaz gəlir" mövzusunda şəkil üzrə müsahibə.

-Milli Ordu haqqında müsahibə.

-Kəsilmiş donu milli naxışlarla bəzəmək.

- "Anam üçün gül" -aplikasiya.

- "Səməni" -rəsm.

-Azərbaycanın milli bayrağı -rəsm.

Böyük qrup (4-5 yaş). Ətraf aləmlə tanışlıq

-Uşaqları dövlət rəmzləri (bayraq, gerb, himn) ilə tanış etmək.

-Milli xalq sənətinin bəzi növləri ilə tanışlıq (dəmirçi, misgər, xalçaçı, zərgər).

-Milli ordumuz haqqında məlumat (tankçı, təyyarəçi, dənizçi, piyada).

- Bakı və onun görməli yerləri -albom üzrə müsahibə.

-20 Yanvar Milli Matəm günüdür -guşədə müsahibə.

- Dövlət rəmzləri ilə tanışlığı davam etdirmək; himni musiqi ilə oxumağı öyrətmək.

-Müxtəlif sənət və peşələrlə tanışlıq. "Sən bilirsənmi?" oyunu.

-Buğdani suya qoyub səməni cücərtmək.

-Respublikamızın iri şəhərləri -Bakı, Sumqayıt, Mingəçevir.

-Milli sənət növləri.

-"28 May" Respublika günü haqqında məlumat

-"Milli bayramlarimiz" müsahibə.

Rəsm -aplikasiya

-Dairədə naxış -aplikasiya.

-Neft daşları -rəsm.

-Atəşgah -rəsm.

-Milli naxışlara baxmaq.

-Butalar -rəsm.

-Sehrli xalça -aplikasiya (kollektiv iş).

Gil işi

-Kasa düzəltmək.

-Küpə hazırlamaq.

Məktəbə hazırlıq qrupu (5-6 yaş). Ana dili və ədəbiyyat.

-Z.Cabbarzadə " Bakı".

-T.Elçin " Gözəl vətən".

-"Cırtdanın kələyi" -Azərbaycan xalq nağılı.

-S.Vurğun "Azərbaycan".

-T.Elçin "Mən kiməm".

-Ə.Fövqi "Ana".

-Ə.Vəliyev "Çörək".

-Novruz nəğmələri.

-“Nər qız” -Azərbaycan xalq nağılı.

-İ.Tapdıq “Bahar yurduma baharla gəlib”.

-H.Arif “Anamı incitmərəm.”

Nitq inkişafı və savad təliminə hazırlıq

- **“**Mənim vətənim” mövzusunda hekayə qurmaq.

-“Bakı mənim vətənimdir” -müstəqil nəqletmə.

Quraşdırma və gil işi

-Xalq sənəti nümunələri əsasında bardaq düzəltmək.

-Rəngli zolaqlarla xalça hazırlamaq.

Rəsm və aplikasiya

-Buta -rəsm.

-“Bayram atəşfəşanlığı” -rəsm.

-“Azərbaycan xalçası” -rəsm.

-“Şən butalar” -rəsm.

-Açıqça hazırlamaq -aplikasiya.

-“Uşaqlar rəqs edirlər” -rəsm.

Bundan əlavə, proqramda niyyət üzrə məşğələlər də vardır ki, burada uşaqlara sərbəstlik verilir və hər kəs istəsə, milli mövzuda məşğul olur.

Bağçada xüsusi günlərin qeyd edilməsi üçün ayrıca plan və proqram hazırlanır; o, pedaqoji şurada təsdiq edilir. Məsələn, Xocalı faciəsinin, Novruz bayramının qeyd edilməsi ilə bağlı tədbirlər planını buna misal göstərmək olar.

Müşahidələrimiz zamanı “Xalqımızın azadlığı və mübarizə tarixində Xocalı faciəsinin rolu” mövzusunda yığıncaqda bağçanın pedaqoji kollektivi, uşaq kontingenti ilə bərabər, valideynlər də iştirak etdilər. Sadə,

aydın, məhz uşaqların başa düşəcəyi üslubda çıxışlar oldu. Nümunə üçün bir neçə çıxışa diqqət yetirək:

- "XX əsrin ən böyük faciəsi sayılan Xocalı soyqırımı hər bir azərbaycanlının yaddaşında, qəlbində özünün dəhşətləri ilə silinməyən izlər qoydu. 1992-ci fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın qədim yaşayış məskənlərindən biri - Xocalı şəhəri yerlə - yeksan edildi. Cəllada dönmüş ermənilər nəinki şəhərdəki qocalara, qadın və qızlara, hətta uşaqlara da əzab-əziyyət verib qətlə yetirdilər. "Ölüm var ölüm kimi, ölüm var zülm kimi". Bəli, atalarımız bu sözü söylərkən haqlıymışlar... Xocalı faciəsi insanlığa yönələn terrordur. Bunu bizlər və gələcək nəsillər heç vaxt yaddan çıxartmamalıyıq".

- "Bu faciə təsadüfi hadisə deyildi. O, nankor,yaxşılığı, duz-çörəyi danan erməni millətçilərinin illərdən bəri Azərbaycan xalqına qarşı yürütdüyü soüqırımı və etnik təmizləmə siyasətinin tərkib hissəsi idi. Bu siyasət erməni diasporunun imkanlarından istifadə edilməklə bütün dövrlərdə hərbi, ideoloji və mədəni vasitələrlə aparılmışdır. Keşən əsrin 80-ci illərinin sonlarında isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları hərbi münaqişəyə gətirib çıxartdı. Zaman-zaman davam etdirilən bu məkrli siyasət nəticəsində azərbaycanlılar öz torpaqlarından qovuldular, didərgin salındılar. Yüz minlərlə insan qaçqın və məcburi köçkün vəziyyətinə düşdü".

- "Dəhşətli Xocalı faciəsini törətməklə ermənilər xüsusi məqsəd güdürdülər. Onlar istəyirdilər ki, bu yolla xalqımızı qorxutsunlar, onun mübarizə əzmini qırsınlar, tarixi torpaqlarımızın bir hissəsinin itirilməsi ilə barışmağa məcbur etsinlər. Lakin hiyləgər düşmən arzusuna çata bilmədi. Xalqımız öz dövlətinin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə sıx birləşdi, mətinlikvə qəhrəmanlıq nümayiş etdirdi.

Bütün bunların böyüməkdə olan nəsillərə çatdırılması vacibdir. Bu baxımdan, tərbiyəçilərin üzərinə çox münüm vəzifələr düşur. Biz nəinki Xocalı faciəsinin, bütövlükdə Ermənistan - Azərbaycan münaqişəsinin

törətdiyi fəsadları gələcəyimiz olan nəsillərin yaddaşına elə həkk etməliyik ki, onlar heç vaxt bunu unutmasınlar. Uşaqlarda Vətənə, torpağa məhəbbət hissi ilə yanaşı, düşmənə nifrət də aşılanmalıdır."

"Xocalı qan yaddaşımızdır" adlı ədəbi -bədii kompozisiya isə uşaqların fəal iştirakı ilə keçdi. Vətənin müqəddəsliyinə inam, onu qorumağın vacibliyi və erməni qəsbkarlarına qarşı nifrət duyğuları ilə başa çatdı.

Novruz bayramına gəlincə, bağçanın təntənələrə necə hazırlaşdığı, milli özünəməxsusluqları uşaqlara necə aşıladığı da diqqətəlayiqdir. Qruplarda uşaqların fəal iştirakı ilə səməni cücərdilməsi, xonçalar hazırlanması, oyunlar, nəğmələr, rəqslər həftələr boyunca davam edir. Kiçik səhnəciklər, divar qəzetləri hazırlanır. Uşaqlar bayramı həvəs və intizarla gözləyirlər. Hazırlıqlar təntənəli kompozisiya ilə başa çatır (Ssenari əlavə olunur).

Həm Azərbaycan, həm də rus bölməsində müşahidə etdiyimiz məşğələlər də problem baxımından olduqca xoş təsir bağışladı. Məsələn, rus bölməsinin məktəbə hazırlıq qrupunda "Xalq sənəti" mövzusunda məşğələ (Tərbiyəçilər: Naidə Məmmədova, Məlahət Şahverdiyeva) əvvəldən axıradək milli özünüdərk ruhuna köklənmişdi. Əsas fikir xalq sənətinin zərgərlik və dulusçuluq növləri üzərində qurulmuşdu. Məşğələ oktyabrın 18-nə təsadüf etdiyindən elə başlanğıcdan iş milli istiqamətə yönəldildi:

-Bu gün ayın neçəsidir?

-Hansı aydır?

-Həftənin neçənci günüdür?

-18 oktyabr barədə nə bilirsiz?

Əvvəlki üç suala cavab aldıqdan sonra müəllim 18 Oktyabr Müstəqillik günü barədə məlumat verdi. Sonra mövzuya keçid edərək söylədi ki, uşaqlar, xalqımızın tarixi çox qədimdir. Ulu babalarımızdan bizə gözəl adət- ənənələr, sənət və sənətkarlıq nümunələri yadigar qalmışdır. İndi mən sizə müxtəlif əşyalar göstərəcəyəm. Görək siz onları tanıyacaqsızmı?

O, masanın üstündəki məmulatları bir- bir nümayiş etdirərək nə olduğunu soruşdu. Uşaqlar həvəslə cavab verdilər.

-Gördüyünüz bu əşya nədir?

-Qolbaqdır.

-Bəs bu nədir?

-Bu boyunbağıdır.

-Bəs bunlar?

-Bunlar sırğa və üzükdür.

-Bu bəzək əşyaları adətən nədən düzəldilir?

-Qızıldan.

-Düzdür. Amma qızılla yanaşı, gümüşdən də düzəldilə bilər. Bunlar nə üçündür ?

-Bəzək əşyalarıdır. Analar, nənələr bəzənirlər.

-Qrupda kimin üzərində bəzək əşyaları var? -Bir neçə nəfər sırğasını göstərir.

-Afərin. Demək, ana və nənələrlə bərabər, bütün xanımlar belə bəzək əşyalarından istifadə edə bilərlər. İndi diqqətlə baxın, bu əşyaların üzərində olan hansı naxış sizə tanışdır? - Tərbiyəçi əşyaları bir daha göstərdi. Uşaqlar sualın cavabını tapır və deydilər:

-Sırğanın naxışları ay və ulduz şəklində düzəldilib.

-Ay və ulduzu biz daha harada görmüşük?

-Bayrağımızda.

-Düzdür, uşaqlar. Demək, bu naxışlar bizim xalqımıza məxsusdur. Qızıldan, gümüşdən düzəldilən belə əşyalar da xalqımızın sənət nümunələridir. Onlara zərgərlik əşyaları deyilir. Bəs onları düzəldən usta necə adlanır? Deyirəm, yadınızda saxlayın: *zərgər*.

Sonra tərbiyəçi kub şəklində qəliblənmiş bir əşyanı qrupa təqdim etdi və buyurdu ki, ona əllə toxunub nə olduğunu müəyyənləşdirsinlər. Cavab tez alındı; əvvəlki məşğələlərdən bələd olduqları üçün dedilər ki, bu, gildir.

- Gildən nə düzəldirlər?

- Qablar.

- Gəlin şəkillərə baxaq, görək xalqımız gildən necə qablar düzəldib.

O, sənək , bardaq, küpə, vaza şəkillərini nümayiş etdirib bunların gildən necə düzəldiyini dedi. Sonra stolun üstünə düzdüyü əşyaları götürərək "Bunlar nədir?" sualını verdi. Uşaqlar qənddan və fincan olduğunu söyləydilər. Tərbiyəçi cavabı təsdiqlədi və bildirdi ki, bunlar da gildən düzəldilib. İndi şəkildə gördüklərinizlə bunları müqayisə edin, görək fərqləri nədədir? Uşaqlar yenidən şəklə və qablara diqqət yetirib qənaətə gəldilər ki, şəkildəki qablar qədimidir.

-Nədən bildiniz?

-Çünki bunlar daha təzədir. Evimizdə də bunlardan var. Siz əvvəllər albomu ("Arxeoloji qazıntılar" albomunu nəzərdə tuturlar) bizə göstərəndə demişdiniz ki, bu qabları yerin altından tapıblar.

-Düzdür, demişdim. Amma yadınızda saxlayın, belə qablardan indi də düzəldirlər. Onu düzəldənə *dulusçu* deyirlər.

Verilən bilikləri möhkəmləndirmək üçün məşğələnin bu mərhələsində tərbiyəçi kiçik oyun keçirdi. Uşaqlardan biri zərgər, digəri dulusçu oldu və " düzəltdikləri" əşyaları nümayiş etdirirlər. Qrup əşyalardan hansının zərgərlik, hansının dulusçuluq məmulatı olduğunu tapdı.

Yekun müsahibəsində tərbiyəci soruşdu:

-Bu qədim nümunələri yaradanların adını deyə bilərsinizmi? Uşaqlar cavab verdilər ki, xeyir, biz onların adını bilmirik.

-Nəyə görə bilmirik?

-Çünki onlar çox qədimdə yaşayıblar.

-Demək, xalqımız qədim xalqdır. Belə əşyalarla biz kökümüzü, ulu babalarımızı daha yaxşı taniya bilərik. Ona görə də yerin altından və üstündən tapılan qədim nə varsa, qədrini bilməli və qorumalıyiq.

Azərbaycan bölməsinin məktəbə hazırlıq qrupunda ana dilindın müşahidə etdiyimiz məşğələdə (Tərbiyəçilər: İahə Əlirzayeva, Gülnurə

Abuşova.) mövzu Yunis Yusifovun "Bayraqımız" şeiri idi. Plan belə qurulmuşdu:

Mövzu: Yunis Yusiflinin "Bayraqımız" şeiri.

Məqsəd: "Bayraqımız" şeirini uşaqlara əzbərlətmək. Azərbaycan Respublikasının Dövlət rəmzlərindən biri olan bayraq haqqında geniş məlumat vermək. Lüğət ehtiyatını zənginləşdirmək. Uşaqlarda dövlət rəmzlərinə hörmət hissi aşılamaq.

Fənlərarası əlaqə: Savad təlimi, sadə riyazi təsəvvürlərin inkişafı, ətraf aləmlə tanışlıq, applikasiya məşğələləri ilə əaqə.

Metod və priyomlar: Əyanilik, uşaqlarla ünsiyyətin dialoq formasında aparılması. Əqli hücum və söz assosiasiyaları. Əməkdaşlıq əsasında uşaqların fəallığının təşkil edilməsi.

Fərdi yanaşma: Uşaqların düzgün cavabına münasibət, çətinlik çəkən uşaqlara kömək göstərmək.

Qiymətləndirmə: Əldə edilən nəticələri müqayisəli qiymətləndirmə.

Əyani vəsait: Şeirin plakatı, bayraq, herb.

Məşğələnin birinci mərhələsində hamı birlikdə dövlət himnini oxudu. Sonra tərbiyəçi müsahibəyə başladı:

-Uşaqlar, bizim Vətənimiz haradır?

-Bizim vətənimiz Azərbaycandır.

-Azərbaycanın paytaxtı haradır?

-Bakı Azərbaycanın paytaxtıdır.

-Gəlin birlikdə Bakı haqqında şeir oxuyaq.

Hamı birlikdə oxuyur: Adın gəzir dodaqlarda,
Yaxınlarda, uzaqlarda.
Şöhrətin var hər diyarda
Gözəl Bakı, gözəl bakı.
Buruqların gəlməz saya,
Ucalırsan günə, aya.

Səs salırsan bu dünyaya
Gözəl Bakı, Gözəl Bakı.

Şeir tamamlandıqdan sonra tərbiyəçi soruşdu:

-Azərbaycan hansı dənizin sahilində yerləşir?

-Xəzər dənizinin.

-Gəlin "Xəzər" oyunu oynayaq.

Uşaqlar xalçanın üzərinə toplaşaraq dəniz kimi dalğalanaraq birlikdə dedilər: Xəzər dalğası ol, bir,

Xəzər dalğası ol, iki,

Xəzər dalğası ol, üç,

Xəzər torpağı ol, sus.

Axırda kimlər hərəkətsiz dayanmağa gecikdisə, uduzmuş hesab olundu və keçib yerində əyləşdi. Oyun bir neçə dövrəyə başa çatdı və tərbiyəçi dedi:

-Uşaqlar, bu çox maraqlı oyun oldu. Sanki Xəzər bizə layla çaldı. Siz layla nə olduğunu bilirsinizmi?

Bir neçə nəfər müsbət cavab verdi. Nəzrin isə anasının onun üçün çaldığı laylanı oxudu.

-Afərin, uşaqlar, çox gözəl. Vətən də bizim anamızdır. O bizi qoruyur, yaşadır. Əvəzində biz də onu qorumalı və yaşatmalıyıq. Bundan ötrü isə Vətən barədə çoxlu biliklər əldə etmək lazımdır. İndi deyin görək Azərbaycan Respublikasının dövlət rəmzləri hansılardır?

U. -Azərbaycan Respublikasının Dövlət himni.

U. -Dövlət gerbi.

U.-Dövlət bayrağı.

-Gerbimiz haqqında kim danişa bilər?

U.-Gerbimizdə palıd budağı dözümlü, möhkəm xalq olduğumuzu bildirir.

U.-Sünbül torpağımızın bərəkətli olduğunu bildirir.

U.-Alov isə odlar yurdu olduğumuzu bildirir.

U.-Gerbimizdə bayrağımızın rəngləri və səkkiz guşəli ulduz da var.

-Himnimizin sözləri kimə məxsusdur?

U.-Himnimizin sözlərini şair Ənməd Cavad yazmışdır.

-Bəs musiqisini kim yazmışdır?

U.-Himnimizin musiqisini Üzeyir Hacıbəyov yazmışdır.

-Afərin uşaqlar, bəs bayrağımız haqqında kim məlumat verər?

Uşaqlar bayrağın rəngləri, üzərindəki ay və səkkiz guşəli ulduz haqqında məlumat verdilər.

- "Bayraq" sözü hansı səslə başlayır və neçə hecalıdır?

U.- "b" səsi ilə başlayır və iki hecalıdır.

-İndi şair Yunis Ysiflinin "Bayraqımız" şeirini söyləyirəm; diqqətlə qulaq asın, sonra birlikdə təkrarlayaq.

Bu "Bir kərə yüksələn"
Bayrağımız üç rəngdir.
Dalğalanan Xəzər tək
Əzəmətli,qəşəngdir.

Mavi rəngi -Azadlıq,
Türklüyün ad- sanıdır.
Qırmızı rəng -qəhrəman
Şəhidlərin qanıdır.

Yaşıl rəngi Tanrının
Əllərinin izidi.
Yaşıllığın,həyatın,
İslamlığın rəngidi.

Ay, Ulduzu Gün kimi
Üzərində gur yanar.
Bələdiyyə bürcündə
Qanad çalar,dayanır.

Bircə parça qumaş yox,
Odlar yurdu özüdür.
Dünyamızın cənnəti,
Gülüstanı,gözüdür.

Yıgışanda altına
Olarıq çox qüvvətli,
Uzaq düşsək, getmərik
Bir qarış da irəli.

Namusudur xalqımın,
Dövlətımın bu bayraq.
Onu gərək həmişə
Yad əllərdən qoruyaq.

Şəhid olan yolunda
Əsil Vətən daşıdır.
Dönük çıxan olarsa,
Ölsə, ondan yaxşıdır.

Bu bayrağın altında
Necə ki, mən də varam.
Onu sevər, əzizlər,
Ona qurban olaram.

Tərbiyəçi diqqəti bayrağın üzərinə cəmlədi və şeiri bənd- bənd izah edərək təkrarladı. Sonra aplikasiya üsulu ilə rəngli kağızlardan bayraq düzəltməyi tapşırdı. Uşaqlar həvəslə tapşırığı yerinə yetirməyə çalışdılar. Məşğələnin sonunda fəal uşaqlar qiymətləndirildi.

Qrupda milli özünüdərk baxımındam daha üç fakt diqqətəlayiq idi. Birini - uşağın layla haqqında təsəvvürü olmasını və oxumasını qeyd etdik. İkincisi, mənşəcə azərbaycanlı olsa da tamam rusdilli ailənin öz övladının milli ruhda böyüməsi, ana dilini öyrənməsi və milli kimliyini dərk etməsi naminə onu Azərbaycan bölməsinə yerləşdirməsidir. Üçüncüsü isə anası fin olan qızın vətən dili - Azərbaycan dili ilə bərabər, öz anasının dilini bilməsi idi. Bu fakt ananın özünün milli özünüdərki və qərib ölkədə onu qızına təlqin etməsi idi.

Belə bir faktla bir neçə ay əvvəl ekranda rastlaşmışdıq; yad millətdən olan müğənni xanımdan soruşmuşdular ki, son vaxtlar görünməməyinin səbəbi nədir? O, cavab vermişdi ki, qızının dil açan vaxtıdır; daim onun yanında olmağa çalışır ki, uşaq ana dilini öyrənsin.

Afərin. Özünü mənsub olduğu millətin zərrəsi olaraq dərk edən ana belə edər; ta ki, zərrələr birləşib kamil millət yarada.

Bağçada apardığımız müşahidələr göstərdi ki, milli özünüdərk ruhunda aparılan tərbiyə işinin belə yüksək səviyyədə olması bağça rəhbərliyi və bütün pedaqoji kollekivin əməyinin bəhrəsidir.

Biz bir bağçanın işini örnək gətirdik. Şübhəsiz, ölkədə problem baxımından işini yüksək səviyyədə quran bağçalar çoxdur. Və ümumən bağça uşaqların vətəndaş kimi böyüməsinin bünövrəsini qoymaqda ailənin və ölkənin ən yaxın köməkçisidir.

4. Bağçada bayram (ssenari)

Zal səməni və xonşalarla, gül- çiçəklə bəzədilmişdir. Divarlarda divar qəzetlərinin bayram nömrələri görünür. Bütün uşaqlar bayramsayağı geyinib bəzənmişlər. Hamı şən əhval -ruhiyyədədir. Aparıcı irəli çıxır və sözünə başlayir.

Aparıcı. Uşaqlar, yurdumuza bahar gəlir. Bütün ölkəmiz baharın gəlişinə, Novruz bayramına hazırlaşır. Səmənilər göyərdilir, şəkərbura, paxlava, qoğal bişirilir; yumurtalar boyadılır. Xonçalar düzəldilir. Xoçaya qoz, fındıq, qurudulmuş meyvələr, rəngbərəng konfetlər və şəkərbura, paxlava, digər bişmişlər düzülür. Qovurğa qovrulur.

Uşaqlar yumurta döyüşdürür, rəqs edir, mahnı oxuyur, şənlənirlər. Bəs siz necə, mahnı oxuya, rəqs edə bilirsinizmi?

Uşaqlar. Bəli.

Aparıcı. Onda gəlin şənlənək. (*Rəqs havası çalınır. Milli libas geymiş qızlar əllərində səməni oynayırlar. Digər uşaqlar əl çalırlar.)*

Aparıcı. İndi gəlin hamımız birlikdə mahnı oxuyaq.*(Oxuyurlar.)*

Gəl, gəl, a yaz günləri,
İlin əziz günləri.
Dağda ərit qarları,
Bağda ərit qarları.
Çaylar daşıb sel olsun,
Taxıllar tel-tel olsun.

Gəl, gəl, a yaz günləri. *(Mahnı bitər- bitməz əlində yumurta tutmuş iki nəfər oğlan irəli çıxır.)*

1-ci oğlan .Gəl yumurta döyüşdürək.

2-ci oğlan. Gəl döyüşdürək.

1-ci oğlan. Şərt kəsirəm, udsam, yumurta mənim olacaq.

2-ci oğlan. Razıyam. Mən də udsam sənin uduzduğun yumurta mənim olacaq. (*Yumurtanı dişlərinə vurub yoxlayır, sonra döyüşdürürl. Bu zaman "mübahisə" edir və ciyinləri ilə bir-birini "itələyirlər".)*

1-ci oğlan. Yumurtanı düz tut.

2-ci oğlan. Yox, sən düz tutmursan. (*Döyüşü təkrar edirlər. Nəhayət, 1- ci oğlan udur.)*

1-ci oğlan. Mən uddum, mən uddum. (*Yumurtanı alıb sevinə -sevinə, gedir .O biri oğlan da onun ardınca "Gəl təzədən döyüşək" deyə səslənir və gedir.)*

Qızlardan biri səslənir. Ay qızlar, ay qızlar! Halaya gəlin, halaya gəlin. *(Bir dəstə qız onun ətrafına toplaşır və dairə vuraraq əl çalır, "Haxışta" oxuyurlar.)*

1-ci qız. Qapısında cüt bulaq. *(Hamı birlikdə)* Haxışta.

2-ci qız. Gedək birini alaq. Haxışta.

3-cü qız. Anasına demişik. Haxışta.

4-cü qız. Atasına yalvaraq. Haxışta.

5-ci qız. Oğlan, adın Əlidir. Haxışta.

6-cı qız. Qolların düyməlidir. Haxışta.

7-ci qız. Çox gəzib, çox dolanma. Haxışta.

8-ci qız. Qızlar deyər: dəlidir. Haxışta.

(*Haxışta bitir və "Qıdqıda" rəqsi çalınır. Uşaqlar rəqs edirlər.)*

Aparıcı. Uşaqlar, bayramda hamı təzə paltar geyinir. Süfrələrimiz xonçalarla, səməniylə, güllərlə bəzənir. Şamlar yandırılır. Plov bişirilir.Onun ətri hər yeri bürüyür (*Bu vaxt qapı döyülür, içəri sellofan kisə atılır).*

-Uşaqlar, bu da elimizin adətidir.Qədimdə kiçik naxışlı torba, yaxud qurşaq atardılar. İndi heç kim belinə qurşaq bağlamır, naxışlı torbalar da yoxdur.Yəqin ki, siz böyüyənədək olacaq. Xalqımız onu Novruz atributlarından biri kimi hazrlayıb meydana çıxaracaq. Siz də alıb istifadə edəcəksiz. Deyə bilərsiz ki, axı, papaq atanlar da olur. Düzdür, olur, amma yaxşı deyil. Xalqımız üçün papaq qeyrət rəmzidir. Ondan əyləncə üçün istifadə etmək olmaz. Qaldı torbaya, torbanı boş geri qaytarmaq olmaz. Gəlin onu bayram payı ilə dolduraq. (*Torbanı doldurub qapının ağzına qoyurlar. Qapı açılır və oğlanlar içəri girirlər.)*

1-ci oğlan. Obamıza yaz gəldi.
Yaz fəsli çox gözəldi.
Sevininik hamımız,
Novruz bayramı gəldi.

2-ci oğlan. Hər tərəfdən sevinc yağır,
Sevinir hamı.
Çünki gəlib yurdumuza
Bahar bayramı.

3-cü oğlan. Bayramlar gözəli Novruz bayramı,
Elimin, obamın gözəl bayramı.
Qoy desin ürəkdən, qoy desin hamı:
Novruz bayramınız mübarək olsun.

(*Hamı birlikdə rəqs edir.)*

Aparıcı. İndi də gəlin Novruz adətlərindən danışaq. Hərə öz bildiyını desin.

1-ci uşaq. Novruzda evləri, həyət - bacanı təmizləyirlər.

2-ci uşaq. Novruzda küsülülər barışır.

3-cü uşaq. Novruzda qonaq gedirlər.

4-cü uşaq. Novruz günü qızlar qırmızı geyininlər.

5-ci uşaq. Novruz şənlikləri düzəldirlər.

6-cı uşaq. Novruzda niyyət tutub qapı pusurlar.

Aparıcı. Ay uşaqlar, gəlin biz də qapı pusaq, görək bu il bizə düşərli olacaq, ya yox. *(Qapını pusur və iki nəfərin söhbətini eşidirlər.)*

Uşaqlardan biri. Eşitdiniz? Dedilər ki, hamının evində bayram olsun.

Aparıcı. Demək, ilimiz necə olacaq?

Uşaqlar. Uğurlu.

Aparıcı. Bu gözəl ilin şərəfinə kim şeir deyər?

Bir nəfər uşaq irəli gəlir:

Bu gün əziz bayramdır,
Vətənimin bayramı.
Deyək, gülək, oynayaq.
Qoy şənlik etsin hamı.

2-ci uşaq. Gəl salam ver günəşə,
Gülsün çəmən, çöl, meşə.
Günümüz, ay uşaqlar,
Bahar olsun həmişə.

3-cü uşaq. Tpmaca deyirəm, tapın:
Çağırdım bənddən,
Səs gəldi kənddən.
Ağzı sümükdən,
Saqqalı ətdən.

Hamı birlikdə cavab verir. Xoruz.

4-cü uşaq. Mən də tapmaca deyirəm:
O yani qaya, bu yanı qaya,
İçində sarı maya.

Hamı birlikdə. Yumurta.

Aparıcı. Gəlin mahnı oxuyaq. *(Əl çalıb mahnı oxuyurlar.)*

Doğdu günəş qırmızı,
Can, gülüm, can, can.

Topladı oğlan qızı,
Can, gülüm, can, can.
Hər birimiz bir çiçək,
Can, gülüm, can, can.
Bir bağçanın ulduzu,
Can, gülüm, can, can.

Bir nəfər təklif edir. Gəlin "Fincan-fincan" oynayaq *(Oynayanlar xalçanın üzərində əyləşirlər. Qalanlar ətrafda dövrə vururlar. Oyunun axırında fincanın altından almanı tapan şeir deyir.)*

Şənlik edək, oynayaq,
Nə gözəldir bu bahar.
Yansın qırmızı şamlar.
Nə gözəldir bu bahar.

Başqa bir uşaq: Novruz gəlir, yaz gəlir.
Durna gəlir, qaz gəlir.
Bir əlində xonçası,
Bir əlində saz gəlir.

Digər uşaq. Günəş öpdü çəməni,
Evdə qoyduq səməni.
Qarşıladıq Novruzu,
Şamlar sarı, qırmızı. (*Hamı birlikdə rəqs edir.)*

Bir nəfər xəbər gətirir. Qonşu uşaqlar tonqal qalayıb, gəlin gedək üstündən atılaq. Ağırlığımız, uğurluğumuz tonqalda yansın. (*"Tonqalın" yanına gəlirlər.)*

Bir nəfər deyir: Gəlib Novruz bayramı,
Yandırmışıq biz şamı.
Tonqallar alışıbdır,
Sevincimiz daşıbdır.

(*Bir- bir "tonqal" üstündən atılır və "Ağırlığım-uğurluğum odlara" deyirlər.)*

Aparıcı. Uşaqlar, ay uşaqlar!
Tonqalları adlayın,
Tüfəngləri odlayın.
Xonçalı Novruz gəlir,
Qonçalı Novruz gəlir.

Qoy sevinsin bu gün hamı,
Gəlib gözəl el bayramı.
Uşaqların xoş salamı
Yayılacaq çiçək- çiçək,
Deyək- gülək, yallı gedək.

(*Hamı birlikdə yallı gedir.)* S O N

5. Məktəbdə şagirdlərin milli özünüdərk tərbiyəsi

Məktəb millətin hər mənada sağlam gələcəyinin təminatçısıdır. O,böyük bir zaman kəsiyində öhdəsinə götürdüyü çətin işi -insan tərbiyə edib yetişdirərək boya-başa çatdırmaq missiyasını yerinə yetirir. Altı yaşlı uşaqkən qəbul etdiyi övladları on yeddi yaşlı gənc vətəndaş olaraq cəmiyyətə təqdim edir. Bu gənclər həm mənsub olduğu ailənin, həm məktəbin, həm də cəmiyyətin simasıdır.İstər ailənin, istərsə də cəmiyyətin bir arzusu, məktəb qarşısında bir tələbi var: kamil insan yetişdirmək.

Kamil insan kimdir? Ağıllı, əməksevər, fiziki cəhətdən sağlam, zəngin mənəviyyatlı, öz hüquq və vəzifələrini yaxşı bilən insan kamildir. Kamilliyə mənəviyyatın min dürlü əlamətləri -vətənpərvərlik, halallıq, mərdlik, düzlük, doğruçuluq, dostluq və yoldaşlıq, mübarizlik, etibarlılıq, sözübütövlük, insanpərvərlik və s. də daxildir. Bunlar hamısı gözəldir, amma milli özünüdərk olmasa, yarımçıqdır.

Məktəbdə milli özünüdərk tərbiyəsi işinin təşkilində bütün təlim fənlərinin özünəməxsus imkanları vardır.Lakin humanitar fənlərin imkanları daha genişdir.

Məlumdur ki,ümuumi orta təhsil üç pillədən keçir: 1)ibtidai təhsil pilləsi; 2)əsas təhsil pilləsi; 3)ümumi orta təhsil pilləsi.

Tərbiyənin bütün istiqamətlərində olduğu kimi, milli özünüdərk tərbiyəsi işində də proses varislik prinsipi əsasında həyata keçirilməlidir. Bundan ötrü tərbiyə işləri üzrə təşkilatçının tövsiyələri əsasında ibtidai sinif müəllimlərinin, fənn müəllimləri və sinif rəhbərlərinin, uşaq təşkilatı rəhbərinin iş planında uyğunluq olmalı, vahid ideya gözlənilməlidir.

Milli özünüdərk tərbiyəsi şagirdlərə milli ruh aşılamaqdan başlayır. O,bünövrəsini ailədən və bağçadan götürür, ibtidai siniflərdə təkmilləşir.Aydın olur ki, yuxarı siniflərdə aparılacaq milli özünüdərk tərbiyəsi işinin özüldayaqları ibtidai siniflərdə möhkəmləndirilməlidir. Bunun üçün hansı imkan və yollar mövcuddur?

İmkan olaraq ilkin mənbə "Azərbaycan dili" dərsliklərıdir. Dərsliklərdə kifayət qədər folklor nümunələri, dini məlumat və hədislər, hekayələr, oçerklər vardır. Digər mənbə "Ana sözü" dərs vəsaitləri və şagirdlərin yaş dövrlərinə uyğun əlavə oxu materiallarıdır .Əsas mənbələrdən biri, bəzi məqamlarda birincisi ailədir.

Əvvəlki bölmədə qeyd etmişik ki, indi ailənin məktəblə əlaqəsi zəifdir; səbəblərini də izah etmişik (Bax."Böyüməkdə olan nəslin milli özünüdərk tərbiyəsi işini akuallaşdıran amillər" bölməsi). Hələ onu demirik ki,gənc ailələrin xeyli hissəsi artıq millilikdən uzaqdır; analar uşaqlara layla çalmır, oxşama, nazlama söyləmir, atalar sözü, milli oyunlar öyrətmirlər; çünki bilmrlər və bütün bunları gerilik, inkişafsızlıq əlaməti kimi başa düşürlər. Bəzi adamların *qovurğa* sözündən utanıb "mədəniyyət" nümayiş etdirərək ona *qızardılmış buğda* deməsi kimi. Belə ailələrdə uşaqlar ilkin formalaşma dövrünü məqsədsiz, məzmunsuz, çox vaxt xoşagəlməz təsirlər altında keçirir, ruhən onlarla qidalanırlar.

Onda problem baxımından müəllimin qarşısında hansı yollar dayanır?

1)Ailələrlə sıx əlaqə yaratmaq, onları özünə tabe etmək və tələb olunan yönə istiqamətləndirmək.

2)Təlim materiallarından məqsədyönlü şəkildə istifadə etmək.

3)Sinifdənxaric işlərə önəm vermək (Qeyd edək ki,problemin bu tərzdə həlli yolu yuxarı siniflərə də aiddir).

İbtidai sinif şagirdlərinin asudə vaxtının düzgün təşkilində ən yaxşı sininfdənxaric iş onların müstəqil oxusu, əxlaqi söhbətlər, ekskursiyalar və səhərciklərdir. Əlbəttə, bayramlar, tarixi günlər qeyd olunmaqla (Bu barədə də müvafiq bölmədə deyilmişdir).

Məktəbin valideynlərlə sıx əlaqəsi baxımından nümunə gətiriləcək yüksək təcrübə azdır, amma ixtisasartırma kurslarında apardığımız sorğulardan və nəşr materiallarından aydın olur ki, az da olsa, var. Məsələn, İsmayıllı şəhər 3 nömrəli məktəbdə Azərbaycan dili və ədəbiyyat müəllimi Arifə Bəşirovanın rəhbərliyi ilə fəaliyyət göstərən dayaq məntəqəsinin işi buna misal ola bilər.

İbtidai sinif şagirdlərinin milli özünüdərk tərbiyəsi işini səmərəli qurmaq üçün kurikulum və dərsliklər geniş imkan yaradır. "Ana dili" , "Azərbaycan dili" dərsliklərində "Vətənimizin tarixindən", "Ailə", "Mənəvi dəyərlərimiz", "Hikmət xəzinəsindən", Tarixi şəxsiyyətlər", "Bayramlar və tarixi günlər", "Təsviri sənət" dərsliklərində "Qədim abidələrimiz", "Yurdumuzun qədim şəhərləri", "Yurdumuzun sənətkarları" bölmələrindəki mövzular, "Musiqi" dərsliklərində xalq mahnı və rəqsləri, muğam, aşıq musiqisi, bəstəkarlar, klassik xanəndə, aşıq və rəqqaslarımız haqqında məlumatlar və tədris olunan konkret nümunələr problem baxımından düzgün seçilmişdir.

İbtidai siniflərdən sonrakı mərhələlərdə də folklor kurikulum və proqramlardan bir qırmızı xətt kimi keçir. İstər epik, istər lirik,istər iri,istərsə də kiçik həcmli nümunələr tədris materialları sırasında geniş yer tutur.Onların hamısının özünəxas tərbiyəedici imkanları vardır və millilik baxımından zəngindirlər. Məsələn, V sinifdə "Göyərçin əfsanəsi" keçilərkən şagirdlər xalqımızın sülhsevərliyini, laylalardan ana məhəbbətini, "Alı kişi" hekayətindən sadəlik və müdrikliyin vəhdətini əxz edirlər. Folklordan gələn milli ruh müəllifli əsərlərin öyrədilməsində daha da dərinləşir. Deyək ki, Xalq şairi Süleyman Rüstəmin "Duz -çörək" şeirini keçərkən xalqımızın duz-çörək kəsmək ənənəsini, bu ənənənin müqəddəsliyini, milli simanın əlamətlərindən biri olduğu üçün onu qoruyub saxlamağın vacibliyini dərk edirlər.

"Kitabi-Dədə Qorqud" dastanları bizi özümüzə tanıdan ən tutarlı vasitədir və məktəbdə kifayət qədər tədris olunur. VI sinifdə "Uşun qoca oğlu Səyrək boyu" ,"Dirsə xan oğlu Buğac boyu", VII sinifdə "Baybörənin oğlu Bamsı

Beyrək boyu” ,VIII sinifdə “Qazan xanın oğlu Uruzun dustaq olduğu boy” ,X sinifdə “Qazan xanın evinin yağmalandığı boy” öyrədilir.

Bir sözlə, dərsliklərdə (dərsliklərin dövlət atributları ilə başlaması öncə olmaqla) milli özünüdərk probleminə kömək edəcək imkan və vasitələr qənaətbəxşdir. Nümunə olaraq fikrimizi VII sinif materialları üzərində qurmaq istərdik. Təcrbəsini öyrəndiyimiz İsmayıllıdakı 3 nömrəli məktəbin müəllimi Arifə Bəşirova atalar sözləri haqqında nəzəri biliklərin verilməsi prosesində şagirdlərin indiyədək öyrənib bildikləri atalar sözlərinə müracət edir.Onların özlərinin söylədikləri nümunələrə istinadən atalar sözləri və məsəllərin mahiyyəti və fərqli cəhətlərini müəyyənləşdirir.Sonra “Atalar sözü və məsəllərin köməyi ilə hər bir xalqın adət-ənənəsini öyrənmək olarmı?” sualı ilə sinfə müracıət edir. Şagirdlər müsbət cavab verirlər. Onda müəllimə dərslikdəki nümunələrə istinadən şagirdləri qruplara ayırır. Hər qrup “İş insanın cövhəridir”, “Vətənin bir qışı qürbətin yüz baharından yaxçıdır”, “Tək əldən səs çıxmaz”, “Doğruya zaval yoxdur” mövzularından birini seçir və seçdikləri başlıq altında müsahibə qururlar.

Təqdimat zamanı şagirdlərin mövzuya baxışında milli özünüdərk motivləri aydın olur.

1-ci q r u p

-Atalarımız nəyə görə “İş insanın cövhəridir” demişlər?

-Ona görə demişlər ki,işləyən insanlar tənbəllikdən uzaq olurlar.

-İnsan tənbəllikdən uzaq olanda nə qazanır?

-Hər şeydən əvvəl sağlam olur.

-Yaşamaq üçün mddi vəsait əldə edir.

-Qazandığı əmək uğurları onu daha da həvəsləndirir.

-İşləyən insanlr güclü olurlar.

-Atalarımız işin insana faydası haqqında daha hansı sözü demişdir?

- “İşləyən dəmir pas atmaz”.

-Biz belə nəticəyə gələ bilərik ki, əməksevər xalqıq.Atalarımız bunu öz sözləri ilə təsdiq etmişlər. Əməkçi insanlara böyük hörmət bəsləmişlər.

2-ci q r u p

- “Dqğruya zaval yoxdur” nə deməkdir?

-Yəni doğruya cəza yoxdur.

-Yalan nə qədər şirin olsa da,onun üstü açılanda yalançı pərt olur, ifşa edilir.

-Doğruçu adam yaxşı adamdır.Çünki o,həqiqəti deyir.

-Doğru söz nə qədər ağır olsa da,həqiqət olduğuna görə dəyərlidir.

-Biz hamımız bilirik ki, namərd qonşularımız yalançıdırlar. Qarabağın onların olduğunu deyirlər.

-Onların yalanı üzündən müharibəyə düçar olmuşuq.

-Amma doğru yol tutduğumuz üçün gec-tez qalib gələcəyik.

-Ataların sözü təcrübədən çıxıb, o heç vaxt yanılış olmur.Biz qalib gələcəyik.

-Xalqımız həmişə doğrunun tərəfdarı olub, indi də belədir, həmişə də belə olacaq. Çünki biz azərbaycanlıyıq.

Didər qruplar da öz müsahibələrini təqdim edirlər.

Arifə müəllimə yeni mövzuya (Kərkük türkmanlarının atalar sözləri) keçid etmək üçün tarix və coğrafiya fənlərinə inteqrasiya yolu ilə sinfə suallar verir:

-Kərkük mahalı haradadır?

-Kərkük türkmanları haqqında nə bilirsiniz?

-Onların xalqımızla genetik əlaqəsi varmı?

Şagirdlər cavab verirlər ki, Kərkük İraq Ərəb Dövlətinin şimalında yerləşir. Kərkükdə bizimlə eyni kökdən olan, bizimlə eyni dildə danışan üç milyona yaxın əhali yaşayır.Sadəcə olaraq onlar özlərinə türkman deyirlər.İraqda gedən müharibə Kərkükə də müsibət gətirmişdir.Kərküklülər bizdən bir parçadır ki, İraqda yaşayırlar.Müasr xəritəyə uyğun olaraq ayrı düşmüşük. Əslində biz birik.

Belə bir girişdən sonra müəllim diqqəti Kərkük atalar sözlərinə cəlb edir.

-Alışdın yağlı dolmaya,əcəb bir gün olmaya.

-Çox meyvəli ağacın başı aşağı olar.

-Builki quş bildirkinə civ-civ öyrədir .

-Camala baxma, kamala bax.

-Dünya yaz ikən qışın tədbirinə bax.

-Gəmidə oturub gəmiçinin gözünü çıxarır.

-Qaş yaparkən göz çıxardı.

-Lalın dilini nənəsi bilər. və s.

Müəllim dərslikdəki atalar sözlərinin bir hissəsini şagirdlərə oxudub müzakirədən keçirərək sual verir:

-Kərkük atalar sözləri ilə bizim atalar sözlərimiz arasında oxşar cəhətlər gördünüzmü?

1-ci ş a g i r d : "Alışdın yağlı dolmaya,əcəb bir gün olmaya" atalar sözü bizim "Dadanmısan dolmaya, kaş o da bir gün olmaya" atalar sözümüzün bənzəridir.

2-ci ş a g i r d : Biz deyirik "Bu ilki sərçə bildirkinə cik-cik öyrədir", kərküklər yalnız "sərçə" ilə "cik-cik"ə xırda dəyişiklik edərək oxuduğumuz kimi söyləyirlər. Eyni sözdür. Fərq görmürəm.

3-cü ş a g i r d : Mən Kərkük ata sözlərindən heyrətə düşdüm. Gör nə qədər uyğundur. Onlar "Çox meyvəli ağacın başı aşağı olar" deyirlər. Biz də deyirik ki, "Ağac bar gətirəndə başını aşağı dikər". Fərq yoxdur.

4-cü ş a g i r d : Biz deyirik : "Gəmidə oturub gəmiçi ilə savaşır", kərküklər deyirlər: Gəmidə oturub gəmiçinin gözünü çıxarır". Biz deyirik "Lalın dilini anası bilər" , onlar "nənəsi bilər" deyirlər. Başa düşürəm nə üçün. Yəqin onlar anaya nənə deyirlər. Çünki bəzi bölgələrimizdə də belədir.

M ü ə l l i m : Afərin, düz fikirləşirsiz. İndi gəlin araşdıraq görək niyə belədir?

Sinifdə müəllimin qoyduğu sualla bağlı müzakirə gedir. Nəhayət,şagirdlər qərara gəlirlər ki, bu, ayrı-ayrı coğrafi bölgədə yaşayan kərkük və azərbaycanlıların vahid xalq olmasından, eyni kökün övladı olmağımızdan irəli gəlir. Bizim babalarımız birdir.

VII sinfin ədəbiyyat dərsliyində "Baybörənin oglu Bamsı Beyrək boyu"nun təqdimatından öncə deyilir: *"Siz xalqımızın ən mühüm və möhtəşəm ədəbi abidəsi ilə aşağı siniflərdən də tanışsınız. Bilirsiniz ki, ulu babamız olan Dədə Qorqudun bizlərə əmanət qoyub getdiyi dastan Azərbaycan ədəbiyyatının nadir incisi, müqəddəs ANA kitabıdır.*

Sizi qədim əcdadlarımız olan oğuzların yaşayış tərzi,adət-ənənəsi,inamları, ımübarizəsi, yurd sevgisi, oyun və mərasimləri maraqlandırırmı? Qğuzlar haqqında yeni məlumatlar toplamaq istəyirsinizmi?

Unutmayın ki, bu dastanın boylarını diqqətlə oxuyub öyrənməklə dilimizə və tarixi keçmişimizə işıqlı qapı açа bilərsiniz."

Təcrübə göstərir ki,müəllimlər dərsliyin bu ideyasını əsas götürərək şagirdlərə *m ü s t ə q i l i ş* tapşırığı verirlər.Tapşırıqlar əvvəlcədən kiçik vərəqlərə yazılaraq stolun üzərinə düzülür. Hər şagird istədiyi vərəqi götürür və seçdiyi mövzuya müstəqil olaraq hazırlaşır.Vərəqlərdə aşağıdakı mövzular əhatə olunur:

-Oğuzların yaşayış tərzi və bugünkü həyatımızda onun əlamətləri.

-Oğuz adət-ənənələri və bu günümüz.

-Oğuz kökündə inamlar -tarixən və bu gün.

-Oğuzlar mübarizə məqamında -tarixən və bu gün.

-Oğuz mərasimləri.

-Oğuzlarda adqoyma mərasimi.

-Oğuz ailələrində uşaqların fiziki hazırlığı.

-Oğuzların yaşadıqları ərazilər.

-Oguzların məşğul olduqları təsərrüfat sahələri və s.

Şagirdlər müstəqil iş tapşırığını yerinə yetirərkən həm dərsliyin, həm də müəllimin tövsiyəsi ilə "Tarix" dərsliyindən oğuzlarla bağlı məlumatları da öyrənir və ədəbiyyatdan oxuyub öyrəndikləri ilə paralellər aparırlar.Ümumi qənaət hasil edərək müstəqil fikrə gəlir və onu təqdim edirlər.Təqdimat zamanı müəllim *p o l e m ı k a y a* şərait yaradır və prosesdə bütün sinif iştirak edir.

1-ci ş a g i r d. Oğuzlar türk tayfalarından biri olmaqla bizim ulu babalarımızdırlar. Onların yaşayış tərzi milli kökdən, həyata milli baxışdan qaynaqlanmışdır. Onlar ailəyə ciddi önəm vermişlər.Oğuzun ən böyük ağsaqqalı Dədə Qorqud, ondan sonra xanlar xanı Bayandır xan, daha sonra digər xanlar olmuşlar. Əmək fəaliyyətləri daha çox maldarlıq, heyvandarlıq və əkinçilik olmuşdur.İlkin orta əsrlərə uyğun tərzdə çadır evlərdə yaşamışlar. Evlər hər kəsin –ailə başçısının, xanımın, yetkin qızların, gənc oğlanların şəninə yaraşan üslubda bəzədilmişdir. Halallığa riayət etmişlər. Ailə şərəfi hər şeydən üstün olmuşdur. Ona görə də düşmən üzərinə yeriyib onu məğlub edəndə belə, torpaqlarını zəbt etməyib ailə şərəfinə zərbə vurmuşlar.

Hazırkı həyatımızda müsbət nə varsa, onlar hamısı kökümüzdən gəlir. Bu gün də Azərbaycan xalqı üçün ailə və ailə şərəfi hər şeydən üstündür. Yaşlılara hörmət və ehtiram bəsləyirik.Təəssüf ki, bəzi məqamlarda kökümüzdən uzaqlaşmışıq.Məsələn, hamı halal yolla qazanc əldə etmir. Bəzi ailələrdə qarşılıqlı hörmət, ehtiram yoxdur.

2-ci ş a g i r d. Oğuzlarda birgəlik,həmrəylik çox güclü olmuşdur.Adətə görə igid oğlanların ətrafında qırx igid, nüfuzlu ailələrin xanım və qızlarının ətrafında qırx incəbelli qız olmuşdur.Onların münasibəti dostluq,qardaşlıq,ana, bacı məhəbbəti dərəcəsində olmuşdur.Toylar elin sevincinə, kədərlər də kədərinə çevrilmişdir.Uşaqları lap erkən yaşlardan göbəkkəsdi etmək adəti olmuşdur. Bu adət indiyədək az da olsa qalıb. Həm oğlanlara,həm də qızlara fiziki hazırlıq üzrə təlimlər keçmişlər. Elçi getmək,qız nişanlamaq,toy etmək adətləi günümüzədək yaşamaqdadır.

3-cü ş a g i r d. Oğuzlar müsəlman olmuş, Yaradana və onun Peyğəmbərinə (S) inanmışlar. Həmişə çətin səfərlərə,düşmən üzərinə gedəndə namaz qılıb Allahdan uğur istəmişlər.Yaxud kiminsə ürəyində arzusu olmuşsa, hamılıqla əl qaldırıb dilək diləmişlər.Qəlbləri təmiz,niyyətləri pak olduğu üçün dilәkləri qəbul olunub. Elə Baybörənin oğlu Bamsı Beyrək, Baybicanın qızı Banuçiçək oğuz bəylərinin dualarının qəbul olunması nəticəsində dünyaya gəlmişlər. Bütün bunlar hamısı bu gün də həyatımızda yaşayır.

4-cü ş a g i r d. Əvvəlcə yoldaşımın dualarla bağlı fikrinə münasibət bildirmək istəyirəm.Onun sözündən belə anlaşılır ki, bu gün də edilən dualar qəbul olunur. Elə deyil. Dədə Qorqud dövründə insanlar qəlbən çox pak və təmiz idilər. Ona görə də, dastanda deyildiyi kimi, qarğışları qarğış, alqışları alqış idi. İndi dualar qəbul olunmur.Bəlkə də az qəbul olunur.O da təmiz adamların duaları. İndi insanlar daha çox yalan danışırlar.

Mübarizəyə gəlincə, oğuzlar heç vaxt düşmən qabağından qacmamışlar.Həmişə düşməni məğlub etmişlər.İnanmışlar ki, Yaradan haqqın tərəfindədir.Haqsız hec vaxt haqlıya qalib gələ bilməz.Ona görə də döyüşə başlamazdan əvvəl namaz qılaraq Allahdan kömək istəmişlər.Döyüşdən qorxub qaçanları özləri sağ buraxmamış,qılıncdan keçirmişlər.

5-ci ş a g i r d. Oğuz babalarımızdan bizə yadigar qalmış, bu günədək yaşayan mərasimlər vardır. Onlardan qonaq qarşılamaq, qonaq getmək, elçilik, toy-nişan mərasimlərinin adını çəkmək olar.Ən gözəli isə adqoyma mərasimi olmuşdur. Dünyaya gələn oğlanlar şücaət göstərməsə,ona ad qoymazlarmış. Buğacın, Bamsı Beyrəyin adı belə qoyulmuşdur.Təəssüf ki,bu mərasm tarıxdə qalmışdır.İndi bəzən qorxaq adamın adının Qəhrəman,Cəsarət,Cəsur,Şücaət, tənbəlin Qüdrət, İldırım, kobudun Ehtiram olduğunu görürük.

Beləliklə,bütün sinif fikir mibadiləsində olur. Hər bir şagird bizə milli kökümüzdən gələn nə varsa, ona təsdiqedici,yaxud tənqidi münasibət bildirir; milli yöndən özünüdərk prosesi yaranır.

Əsas təhsil pilləsində şagirdlər xanlar xanı Bayandır xanın qızı Burla xatunun timsalında oğuz xanımlarının hünər və cəsarətinin şahidi olurlar.Burla xatun "Qazan xanın oğlu Uruzun dustaq olduğu boy" da düşmənin bayrağını ayaq altına alıb taptalayır.Bu boyda həmcinin ata tələbkarlığını görürük; oğlu Uruzun döyüşə tamaşa edərkən qorxub qaçdığını düşünən Qazan xan onu şaqqalayacağına söz verir. Oğlun cəsarətinə heyran qalırıq; atası onun hələ bərkə-boşa düşmədiyini nəzərə alaraq bir təpə başına çəkilib dostları ilə vuruşa tamaşa edib öyrənməsini tapşırsa da, o, qeyrət və hünərlə atasının köməyinə yetmək istəyilə meydana girir.

Uruzla ikinci görüşümüz "Qazan xanın evinin yağmalanması boyu"nda olur. Atasının düşmənə əsir düşməsi xəbərini alınca özünü ona yetirmək,onun xilası üçün çarpışmaq arzusu ilə Uruz atına süvar olur.Fəqət özü də əsir düşdükdə, atasının evi, başda Burla xatun olmaqla əhli-əyalı yağmalanıb, əsir-yesir edilib düşmən qapısına gıtirildikdə atasının şərəfini,anasının namusunu qoruyur.Ölümdən deyil, ləkədən,şərəfsizlikdən qorxur.

Qazan xanın qoca, gücsüz anasını düşməndən geri almaq üçün nələri güzəştə getmək istədiyini görürük.

Dastanda yuxarı təbəqə ilə yanaşı, aşağı təbəqənin də nümayəndələri iştirak edir. Qaraca çoban və digər çobanlar, tacirlər,qulluqçular aşağı təbəqədir. Onlar da mərdlik,cəsurluq,cəsarət nümayiş etdirən insanlardır.

Şagirdlərin "Kitabi -Dədə Qorqud"la V sinifdə Mikayıl Rzaquluzadənin yazdığı "Ana ürəyi, dağ çiçəyi" hekayəti ilə başlanan tanışlığı X sinifdə "Qazan xanın evinin yağmalanması boyu" ilə başa çatır. 1X sinif istisna olunmaqla beş il ərzində onlar dastanın köməyi ilə ulu əcdadlarımızı tanıyır,onlardan müasir çağımıza nə qaldığını öyrənir, yaxşıya sevinir, yamana təəəssüflənirlər. Tariximizi,coğrafiyamızı, etnik mənsubiyyətimizi, ana dilimizi, məişətimizi, adət -ənənələrimizi və digər xüsusiyyətlərimizi, haradan gəlib haraya getdiyimizi bir daha dərk edirlər. Beş il ərzində milli özünüdərk baxımından nələr əldə etdikləri yazdıqları inşalarda, yürütdükləri şifahi mühakimələrdə, etdikləri çıxışlarda, ən əsası özünüidarə tərzlərində təzahür edir.

Əvvəldə qeyd etdik ki, humanitar fənlər öncə olmaqla bütün təlim fənlərinin milli özünüdərk imkanları mövcuddur.Fikrə əlavə edirik ki, fənlərin öz daxilində də problem yönündən əlvan çalarlar var.Əgər folklor ən qədim tariximizdən gələn informasiya mənbəyidirsə, yazılı ədəbiyyatda da müxtəlif sənətkarların həyatı, qələm nümunələri, tarixi dövrlər də olduqca faydalıdır. Fərqi yoxdur ki,o sənətkar proqramda ayrıca oçerkdə təqdim olunur, icmalda adı çəkilir, yaxud ümumən diqqətdən kənarda qalıb.

Burada müəllimin özünün sənətkarlığı,yaradıcılığı, problemə yanaşma tərzi mühümdür. Əgər o, öz fəaliyyətini dərs prosesi ilə məhdudlaşdirarsa, məqsədinə tam nail ola bilməz. Odur ki, dərsdənkənar asudə vaxtdan da səmərəli istifadəyə çalışmalıdır. Şagirdlərin istər fərdi, istər qrup halında, istərsə də kütləvi şəkildə iştirakını təmin edən bir-birindən maraqlı iş növləri vardır.Amma əvvəlki bölmədə qeyd etdiyimiz kimi, təəssüflər; indi məktəblərdə sinifdənxaric işlər arxa plandadır. Şagirdlərdə kitaba meyl və maraq yaradılmır. Halbuki, əlavə oxu dərsdənkənar vaxtlarda həyata keçirilən digər iş növlərinə gedən yolun başlanğıcı olmaqla təlimin məzmununu daha da zənginləşdirən, nitqi, zövqü, mənəviyyatı, həyata baxışı, dünyagörüsünü inkişaf etdirən lazımlı vasitədir. Elmi mənbələrdə o, "məcburi" və "könüllü" oxu deyə iki yerə ayrılır. Məcburi oxu hər hansı fəndən təlim materialiarına uyğun bir sıra mənbələrin proqramın tələbilə dərsdənkənar oxusudur. Könüllü oxu, adından göründüyü kimi, şagirdlərin sərbəst oxusudur. Burada nəyi və necə oxumaq barədə proqram tələbindən söhbət gedə bilməz; lakin müəllimin nəzarəti vacib və inkaredilməzdir.

Qabaqcıl təcrübəyə istinadən deyə bilərik ki,şagirdlərin milli özünüdərk tərbiyəsi baxımından "məcburi" oxu materiallarını, xüsusən yuxarı siniflərdə, aşağıdakı prinsiplər əsasında müəyyənləşdirmək faydalıdır: 1)Tarixilik. 2)Sənədlilik. 3)Elmilik. 4)Müasirlik.

1.Tarixilik prinsipi tarixi dövr və şəxsiyyətlərdən bəhs edən ən zəruri əsərləri əhatələyir.Onların oxusundan məqsəd tarixin ayrı-ayrı mərhələlərindəki faktları şagirdlərə çatdırmaq və öyrətmək,onları soy kökünə bağlamaq ruhunda tərbiyə etməkdir. Məsələn: Əziz Şərif. "Keçmiş günlərdən", İsa Hüseynov."Məhşər", Əzizə Cəfərzadə. "Bakı-1501" , "Aləmdə səsim var mənim", "Vətənə qayıt", Əlisa Nicat. "Qızılbaşlar", Seyfəddin Dağlı."Bahar oğlu", Elçin. "Fikrin karvanı", Çingiz Hüseynov. "Fətəli Fəthi", Şəmistan Nəzirli. "Qoridən gələn qatar", "Azərbaycan generalları", Osman Mirzəyev. "Ağ ləkələr silinir" və s.

2.Sənədlilik prinsipi bilikləri duruldub konkret məxrəcə gətirən,tarixi həqiqəti ortalığa qoyan əsərləri əhatə edir.Bu prinsipə əsaslanmaqla sənədli əsərlərdən, xatirə-memuar ədbiyyatından, məktublardan və s. istifadə etməklə milli özünüdərk tərbiyəsi işini irəlilətmək mümkündür. Məsələn, F.Bodenşdet. "Mirzə Şəfi haqqında xatirələrim", N.Nərimanov. Oğlu Nəcəfə yazdığı məktub, H.Məmmədquluzadə. "Mirzə Cəlil haqqında xatirələrım", M.Süleymanov. "Eşitdiklərim, oxuduqlarım, gördüklərim", Ü.Banu. "Qafqaz günlərindən", Anar. "Anlamaq dərdi" , D.Axundzadə. "Müşfiqli günlərim", S.Cabbarlı. "Onu kim unudar", M.Vəkilov. "Ömür dedikləri bir karvan yolu", R.Hüseynov."Cavidlər", R.Səməndər. "Qara yanvar" və s.

3.Yuxarı sinif şagirdlərinin yaş və bilik səviyyəsi imkan verir ki, problem baxımından elmi mənbələrdən də faydalansınlar. Məsələn, "Qarabağnamğlər," "Türkün qızıl kitabı", S.Aşurbəyli. "Şirvanşahlar tarixi", B.Məmmədov. "Xurşid banu Natəvan", X.Məmmədov. "Sultan Məcid Qənizadə", S.Hüseynov. "Seyid əzim şirvani", B.Nəbiyev. "Firidun bəy Köçərli", V.Osmanov. "Azərbaycan romantikləri", Ə.Mirəhmədov. "Məhəmməd Hadi", K.Məmmədov. "Qasım bəy Zakir" və s.

4.Müasirlik prinsipi şagirdlərə müasir həyat tərzimizin ruhunu aşılamağı,onlara müstəqilliyin dünya səviyyəsində misilsiz sərvət olduğunu anlatmağı tələb edir.Bundan ötrü müəllim təbliğatçı olmağı bacarmalıdır. Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı nəşr olunmuş bütün materiallar, günün reallırlarını əks etdirən informasiyalr onun köməkçisidir.

Adlarını çəkdiyimiz prinsiplər arasında kəskin sədd yoxdur; onlar bu və ya digər dərəcədə bir-biri ilə sıx əlaqəlidirər.Gətirilən nümunələr isə yeganə mümkün variant deyil; istiqamətverici xarakter daşıyır. Əlbəttə, hər bir müəllim işlədiyi məktəb mikrorayonundakı məktəbdəki kitabxana fondunun imkanlarına, dərs dediyi siniflərdə şagirdlərin inkişaf səviyyəsinə uyğun tövsiyələr verməkdə sərbəstdir.Eləcə də müstəqil mutaliəyə müəllimin müdaxiləsi şagirdlərin asudə vaxtda kitabla müstəqil işini faydalı məcraya yönəltməkdir.

Şagirdlərin müstəqil oxusunun nəticələrini həm qrup halında,həm də kütləvi şəkildə həyata keçirilən işlərə tətbiq etmək,bununla da milli özünüdərk tərbiyəsi işinin səmərəsini artırmaq mümkündür.Kütləvi tədbirlər sırasında fənn axşamları,müsabiqələr,görüşlər,disputlar,oxucu konfransları və s. adını çəkmək olar.Fikrin təsdiqi üçün m ü z a k i r ə l ə r i n üzərində dayanaq.

Müzakirə bu günün ən aktual, məqsədyönlü iş forması olaraq şagirdləri sövq edir ki, fakt və hadisələri təhlil edərək vacib olanı kollektiv surətdə axtarsınlar və obyektiv nəticəyə gəlsinlər. İndiki informasiya bolluğu şəraitində bu, problem yönündən tarixə ekskurs etməklə də mümkündür. Şagirdlər indiki ümummilli inkişafı gözləri ilə görürlərsə, bəs bir zaman necə olmuşdur? Hansı mərhələlərdən keçib gəlmişik? Nə kimi çətinliklərimiz olmuşdur? Bu kimi suallara cavab tapmaq, uğurlarımızla bərabər, kəsirlərimizi də öyrənmək, onlardan ibrət almaq işin gərəkli tərəfidir.Fikrin təsdiqi üçün Bakı məktəblərinin birində X1 sinifdə keçirdiyimiz müzakirəni misal gətirə bilərik. Nəriman Nərimanovun ayrica oçerkdə keçilmədiyini, icmalda haqqında məlumat verilmədiyini, beləliklə, şagirdlərin onun yaradıcılığı haqqında məlumatsızlığını, ona görə də təsirə düşmədən sərbəst fikir yürüdə biləcəklərini nəzərə alaraq "Bahadır və Sona"nı müzakirə obyekti seçdik. Yardimçi mənbə olaraq M.Ə.Sabirin "Çatlayır, xanbacı, qəmdən ürəym" satirasının, Manaf Süleymanovun "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" əsərinin "Neft sənayesinin inkişafı" bölməsindən "Hacı Zeynalabdin Tağıyev" oçerkinin oxusunu təklif etdik.

Müzakirəyə hazırlıq bir neçə həftə çəkdi.Təklif edildi ki, hazırlıq zamanı aşağıdakı suallara cavab tapsınlar:

-Bahadırın Sona ilə tanışlığının səbəbi.

-Sonanın Bahadırın xoşuna gəlməsinin səbəbi.

-Məngilisdən Tiflisə gedərkən Bahadırın yolboyu görüb öyrəndikləri.

-Bahadırın dostu Sultanla söhbəti: a) müsəlmanların pis dolanacağı və riyakar din xadımlərinin əməlləri barədə; b) müsəlman qızlarının təhsili barədə; c)məktəb, qiraətxana, mətbuat, sünni -şiə məsələsi;

-Hacı Zeynalabdin Tağıyevin Bakıda qız məktəbi açmağının səbəbi.

-M.Ə.Sabirin "Çatlayır, xanbacı, qəmdən ürəyim" satirasının mövzusu.

-Təhsil görmüş müsəlman oğlanların təhsildən sonrakı ailə həyatı.

- Bahadırın özünü öldürməsinin səbəbi.

Müzakirə zamanı müəllim tədbiri açaraq elan etdi ki, hər kəs fikir söyləməkdə sərbəstdir. Bir-birimizi dinləməyə və hörmətlə yanaşmağa çalışmalıyıq. Bundan sonra şagirdlər müəllimin kiçik idarəedici müdaxilələri fonunda əsəri müzakirə etməyə başladılar. Qənaətlər maraqlı idi. Şagirdlərin adlarını ayrı-ayrılıqda çəkməklə təfərrüata varmadan onları belə ümumiləşdirmək olar: "Biz qədim mədəniyyətə malik xalqıq. Tarıxin səhifələrində silinməz izlərimiz vardır. Qobustan qayalarından "Avesta"ya, "Dədə Qorqud"a, folklorumuza, oradan yazılı mənbələrimizə, arxeoloji tapıntılara diqqət yetirsək, bunu açıq-aydın görərik. Zərdüştilik dövründə də, Dədə Qorqud zamanında da qızların təhsilinə önəm verilmişdir. Böyük şairlərimiz Nizami və Füzuli "Leyli və Məcnun" əsərlərində qızların oğlanlarla bərabər təhsil aldığını yazmışlar. Lakin elə bir dövr gəlib çıxmışdır ki, qızlar məktəbdən uzaqlaşdırılmışdır. Bunun səbəbkarı kim olmuşdur? Əlbəttə, cəhalət. M.Ə.Sabirin, C.Məmmədquluzadənin, digər böyük şəxsiyyətlərin əsərlərində və əməllərində bunu aydın görürük.Onlar millətə hədsiz qüsur və ziyan gətirən bu əcayib vəziyyəti kütləyə başa salmağa və aradan qaldırmağa çalışmışlar. Nəriman Nərimanov da "Bahadır və Sona" əsərini bu niyyətlə yazmışdır.

Bahadır tələbədir. Peterburqda təhsil alır. Yay tətilində vətəninə gəlmişdir. Sonanı ilk dəfə çəmənlikdə kitab oxuyan yerdə görür. Gözəlliyindən xoşu gəlir, amma kim olduğunu bilmir.Təsadüf elə gətirir ki,bir az sonra mağazada Sonanın atası ılə tanış olur.Yusif övladının "Qız institutu"nu bitirdiyini türkcə yaxşı bildiyini, indi farsca öyrənmək istədiyini və bu məqsədlə ona müəllim axtardığını söyləyir. Bahadır təkliflə razılaşır. Beləliklə, Sona ilə tanış olur.

Bahadır bəy oğludur. Sona ilə söhbətlərindən biz onun ağıllı, ziyalı, tək özünü, ailəsini deyil, həm də millətini düşünən, millətinə fayda vermək üçün savadlanmağa çalışan bir qıza valeh olduğunu görürük. Bu valehliyin arxasında

kədər var: Kaş mənim millətimin də belə qızları ola.Bahadır niyə görə belə kədərlənir? Məgər müsəlman qızları təhsilsiz idilərmi? Suala bir neçə yöndən cavab tapmaq mümkündür.

Birincisi, elə Sona ilə söhbətlərdir. O, millətdən, milli mənafedən, milli mətbuata köməkdən söhbət düşəndə qızın necə həvəslə, necə ürəkdən danışdığını, millətinə kömək etməyə hər an hazır olduğunu görüb ah çəkir. ”Biçarə millətim” deyir. Sona onun kədərini başa düşür, ona təsəlli verir, onun millətinin geridə qalmasının səbəblərini açıqlayır. Bahadr Sonanın zəkasına heyran qalır. Ağıllı bir həmsöhbət olduğunu gördükcə ona bağlanır.

İkincisi, Bahadır Məngilisdən Tiflisə gedərkən faytonçu ilə etdiyi söhbətdir. Faytonçu ona ruhanilərin özbaşınalığından, gücsüzlərə, kasıblara qarşı İslamın yol vermədiyi günah əməllərindən, məsələn, kasıbın nişanlısının kəbinini dövlətlinin oğluna kəsməsindən, kasıbın kəbinli arvadını dövlətlinin almasına imkan yaratmasından, bu səbəbdən də intiqam almaq hissilə yaşayan cavanların, kişilərin dağlara çəkilərək qaçaqlığa başlamasından danışır. Bahadir xristianların əhatəsində yaşayan müsəlmanların özününkülər tərəfindən hüquqsuz, çarəsiz vəziyyətə düşdüyünü görür.

Üşüncüsü, Bahadırın Tiflisdə dostu Sultanla söhbətidir. Onlar görüşüb əhvallaşır, yay tətilini necə keçirdiklərindən, kimlərlə taniş olduqlarından, millətin dərdindən danışırlar. “Millətin dərdini biz çəkməyəndə kim çəkəcək, biz yazmayanda kim yazacaq?” deyib dərdəşirlər. Sultan tətil vaxtı bir neçə şəhərə səfər edib gördüklərindən, eşitdiklərindən: Gəncədə bir il əvvəl açılmış yeni üsulla dərs keçilən rus-müsəlman məktəbinin müəllim sünni olduğuna görə bağlanmasından, böyük axundun yanında olmasından, onunla millətin maariflənməsi yolunda məktəb və qiraətxana açmağın vacibliyi baədə söhbətə cəhd etməsindən, amma bir nəticə alınmamasından, məscidin minarələrinin dağılıb-tökülməsindən, ruhanilərin heç olmasa dinin qeyrətini çəkib məscidə yığılan pulla onu təmir etdirməməsindən, Hacıkənd, Şirvan,Tiflis Məngilis və digər yerlərdə də vəziyyətin belə olduğundan danışır. Sonra söhbəti qızların təhsili üzərinə gətirirlər. Sultan yeddi il institut təhsili almış bir müsəlman qızı

və onun ailəsi ilə Tıflisdə tanış olduğunu və tanışlıqdan aldığı təəssüratı söyləyir. Məlum olur ki, qız və onun ailəsi mədəniyyətdən danışsalar da mədəni deyillər. Qızın təhsilinin ağır vəziyyətdə olan millətə gərəkliyi ilə deyıl, məclislərdə yaxşı tans oynamağı ilə öyünürlər. Qız öz millətini və ana dilini bəyənmir.”O nədir ki, gözəl vaxtımı ona çürüdəm” deyir. Onunla ana dilində danişan Sultana rusca cavab verir. Guya minnətdarlığını bildirəndə fransızca “mersi” deyir. Millətini aşağı təbəqədən sayır və onlarla oturub-durmağı şəninə sığışdırmır.Bədəbəd ayaqda əfsərə- yəni zabitə ərə getmək istəyir. Anası deyir ki, bizim qız əlini isti sudan soyuq suya vurmaz. Onu elə adama ərə verəcəyəm ki, uşaqdan ötrü ayrı, ev işlərindən ötrü ayrı qulluqçusu olsun. Sultan deyəndə ki, siz gərək çalışasınız qeyrilər də qızlarını oxumağa versinlər; ona görə də lazımdır ki, onlarla əlaqəniz ola, ta qızınızın tərbiyəsini görüb onlar da qızlarını qoyalar oxumağa. Qadın etirazını bildirir: Mənim qızım mədənidir. Onlar isə oturub-durmaqlarını bilmirlər. Belə adamlarla ünsiyyət qurmaq bizə yaraşmaz. Ümumən, qızım Tiflisdə heç bir qızla dostluq edə bilmir. Belə mədəni qıza yaraşmaz da.

Bahadırla Sultan kədərlənirlər. Axı millətin gələcəyi anaların əlindədir. Ananın savadsızlığı, təlim-tərbiyə işlərindən xəbərsizliyi bir dərddirsə, savadlı olanın biganəliyi, milli dəyərləri, doğma ana dilində danışmağı geridə qalmağın əlaməti sayması da başqa bir dərddır.

Bahadır isər-istəməz Sonanı, Yusifi, Maşonu, Alekseyi xəyalından keçırır. Onlar özünü mədəni sayan müsəlman ailəsinin tamam əksidirlər. Qonşu olaraq bizim də dilimizi öyrənir, mətbuatımızı oxuyur, problemlərimizdən xəbərdar olurlar. Millətin inkişafına yönəlməyən hərəkətlərimizə təəccüb edirlər. Müqayisələr aparırlar. Bütün erməni ailələrinin məktəbə, kilsəyə və kitab nəşrinə, mətbuata yardım üçün həmişə pul ödədiklərini deyirlər. Dövlətlilərimizin millətin halına yanmamağı, xeyriyyə çəmiyyətimizin olmamağı, ruhanilərin qəzetlərin nəşrinə maneçilik törətməsi,bəzi savadlılarımzın özlərini göstərmək üşün millətin başa düşdüyü ana dilində deyil, rus, yaxud bəlağətli ərəb dilində yazmaları onlara qəribə gəlir.

Aleksey millətinin gənc nümayəndəsi Sonanın bu məsələlərə fəal münasibət bildirməsindən, ağıllı fikirlər söyləməsindən qürur duyur. Bahdır isə Sonagilin millətinin özünəyananlığını, bizimkilərin biganəliyini düşünüb narahatlıq keçirir.

Sultanla söhbətində Bahadır bunu deyir; Sonanın dəftərini göstərib "Millət qeyrəti desən, onda, əsil-kamal istəyirsən, onda, bizimkilər?! Jeddi-səkkiz il zəhmət çəkib elm oxuyurlar ki, tans öyrənsinlər, öz dillərini unutsunlar və ərə gedəndə də ancaq əfsərə... Tfu!

Romanı mütaliə edən oxucu istər-stəməz düşünür: Bahadır Sonanı bəyənirdi, sevirdi. Sona da onu sevirdi. Bu məhəbbət qarşılıqlı idi. Sonanın ata-anası da bu ailənin qurulmasına tərəfdar idi. Hətta aradakı din ayrılığını düşünərək Bahadıra dinini dəyişməyi təklif etmək istəyirdilər.Onun nəcibliyinə, kamalına ümid bağlayırdılar. Bəs nə oldu? Nəyə görə Bahadır özünə qəsd etdi?

Əlbəttə, Nərimanov ağıllı, tərbiyəli, savadlı, millətinin halına yanan qəhrəmanının belə addım atmasını, başqa millətdən olan xanımla evlənməsini istəməzdi. Nəyə görə? Çünki bu ailə milli mənsubiyyətinə görə yarımçıq olacaqdı. Bütöv, gözəl Azərbaycan ailəsinin yaranması yolunda isə əngəllər var idi. Onun biri təhsil almış tək-tək müsəlman qızlarının lovğalığı, öz millətini bəyənməməsi, digəri isə olduqca geridə qalmış, təhsilli oğlanlara xofla baxan qızların məhdud dünyagörüşü idi. Təbii ki, bunlarla qurulan ailə də mükəmməl ola bilməz. Nümunə üçün M.Ə.Sabirin "Çatlayır, xanbacı, qəmdən ürəyim" satirasına diqqət yetirmək kifayətdir. Satirada təsvir olunan qız savadlı adamla ailə qurmasına peşimandır. Dama, divara təzək yapmağı, bit bitləməyi kitab oxuyan, yazı yazan insanla bir yerdə olmaqdan üstün bilir. Kitab oxumağı tərbiyəsizlik sayır və gündəlik həyatını belə təsvir edir:

Oturub ac komasında atamın,
Biş-düşün hazır edərdim anamın.
Bitləyərdim nənəmin baş-yaxasın,

Yamayardım babamın çul-çuxasın.
Tez durub sübh sağardım inəyi,
Xansənəmdən diləməzdim köməyi.
Neyliyirdim bəzəyi, ya düzəyi?
Dama-divara yapardım təzəyi!
...Nə bilirdik nə zəhirmardı kitab?
Biz olan evdə haçan vardı kitab?
Büsbütün gül kimi insanlarıdıq,
Nə müəllim,nə də dərs anlarıdıq.
Dəftərın andıra qalmış sözünü
Eşidib görməmiş idik üzü nü.

O, evdəki kitablardan bezir. Savadlı ərini insan şəklində heyvana bənzədir. Qarğış edir. Onu "düz yola" yönətməyə çalışır. Səbəb düniagörüşlərinin, həyata baxışlarının uyğun gəlməməsidir.

Ölkədən kənarda universitet təhsili almış azərbaycanlı oğlanlar ailə həyatı qurmaq məqamında belə bir çətinliklə üzləşməsinlər deyə qeyri millətdən olan savadlı qızlarla evlənirdilər. Bu da başqa bir fəlakət idi; millətin ziyalıları, ağıllı adamları çıxış yolu axtarırdılar.

Manaf Süleymanov "Eşitdiklərim, oxuduqlarım,gördüklərim" kitabında bu barədə yazır ki, çar III Aleksandr sağ olanda Hacı Zeynalabdin Tağıyev ona ərz-hal yazıb, müsəlman qızlarının öz ana dillərində oxumaları üçün icazə istəyir. III Aleksandr bu xahişi rədd edir.O öləndən sonra II Nikolay taxta çıxır.Tacqoyma münasibətilə Hacı Nikolayın arvadı Aleksandra Fyodrovnaya çox bahalı hədiyyə çatdırır və eyni zamanda Bakıda qız məktəbi açmaq barədə təkrar xahişnamə göndərir. Rica edir ki, məktəbə çariça Aleksandra Fyodrovnanın adı verilsin (Bu xahişi ona gırə edir ki, qadın çarı Hacının xahişini rədd etməyə qoymasın). Eyni zamanda məktəbin xərclərini ödəmək üçün banka böyük məblığdə pul qoyur. İki ildən sonra məktəbi açmağa icazə verilir. Tağıyev məktəbi açmaq üçün Bakının mərkəzində bina tikdirir və müsəlman

qaragüruhçuları işə mane olmasın deyə, onların bəhanəsini kəsmək, ağızlarını yummaq üçün iki nəfərə məktub, pul və hədiyyələr verib müqəddəs hesab edilən yerlərə -Məkkəyə, Mədinəyə, Kərbəlaya, Xorasana, Qahirəyə, İstanbula, Tehrana və s. yerlərə göndərir və tapşırır ki, oradakı mötəbər din xadımlərindən imza və möhürlə təsdiqlənmiş rəsmi sənədlər alsınlar ki, müsəlman qızları da oğlanlar kimi şəriət məktəblərindən başqa müasir məktəblərdə təhsil ala bilərlər. Burada pis bir şey yoxdur. Lakin müsəlman qızları üçün müasr məktəbin açılacağı xəbəri şəhərə vəlvələ salır. Hər yanda bu barədə söhbət gedir, dava-mərəkə düşür.

Qaragüruhçu ruhanilər, tapançalı qoçular dayanmırlar. Dini mənbələrdən sübutlar gətirərək bu işi küfr adlandırır, Hacını da günahlandırırlar ki, dindən kənar əməllərlə məşğuldur. Hacı müsəlmanların müqəddəs ziyarətgahlarındakı din xadimlərinin imzalayıb möhürlə təsdiq etdikləri sənədləri, şəhadətnamələri, Qurandan ayələri oxutdurub camaatı başa slmağa cəhd edir ki, qızların təhsil almasında pis heç nə yoxdur. Əksinə, bu, vacib və lazımlıdır. Qaragüruhçular etiraz edirlər. Onda Hacı özü danışmağa başlayır: “Camaat, qızlarımızın zəmanə dərsi oxumaları vacibdir; gözləri açılar, külfətdə rəftarları xoş olar... İngilistana, Germaniyaya, Firəngistana gedib oxuyan cavanlarımızın hərəsi oradan qollarına bir arvad keçirib gətirir. Çünki qızlarımıznan məcazları tutmur, dolana bilmirlər; əcnəbi arvadlardan doğulan uşaqlar öz-özünə olurlar mürtəd və bütün varidatımıza vərəsə çıxırlar. İşlər belə getsə, ata-baba ocaqları qalacaq Quransız, namazsız, şəriətsiz. Təzə məktəbdə qızlara şəriət qanunları, paltar tikmək, toxuculuq, mətbəx işləri, müsəlman və rus dilində oxuyub-yazmaq, hesab elmi, uşaqlara tərbiyə vermək öyrədiləcək. Burada pis şey var?

Molla Əli Hacı Xəlil oğlu! Qulaq as! Mən qızları ismətsiz etmək istəmirəm, naməhrəmlə üzüaçıq olmağa çağırmıram. Srağa gecə iyirmi yaşlı ortancıl qızın sancılanmışdı. Az qalmışdı ölsün. Lopabığ Ambarsum həkimi gətizdirdin, qızı yoxladı, dava-dərman elədi. Qızı ölümdən qurtardı. İndi de görüm, lopabığ Ambarsumun əvəzinə müsəlman arvad həkim olsaydı, şəriətə

hansı düzgün gələrdi? Arvad həkimlərinə, müəllimlərə ehtiyacımız çoxdur" (37).

Biz millətin qeyrətini çəkən Hacı Zeynalabdin Tağıyevə və onun sözünə qulaq asıb əməl edən milyonçulara rəhmət oxumalıyıq. Özü üçün deyil, milləti üçün yaşayan o dövr ziyalılarının qədrini bilməliyik. Onlar tarixən mədəniyyətin zirvələrində olmuş, sayqısızlıq, biganəlik, özünə hörmətsizlik, özünə və özününkülərə dəyər verməzlik səbəbindən ətraf qonşulardan və dünyadan geridə qalmış milləti ayağa qaldırmaq yolunda fədakarlıq göstərmişlər. Nəriman Nərimanov da həmin böyük şəxsiyyətlərdən biridir. Onun "Bahadır və Sona " romanı çox aktualdır. Bunu həmişə yaddaşımızda saxlamalı və səhvə yol verməməliyik.

Şagirdlərin əsəri belə dərk etmələri və obyektiv münasibət bildirmələri göstərir ki, milli özünüdərk tərbiyəsi işində təlim prosesi ilə yanaşı, sinifdənxaric işlərin müstəsna əhəmiyyəti vardır. Təəssüf ki, məktəblərimizdə onun çoxsaylı növləri unudulmuşdur.

Beləliklə, məsələnin ümumi mahiyyətindən aydın olur ki, qloballaşma şəraitində böyüyən nəslin milli özünüdərk tərbiyəsi ümummilli mənafeyə xidmət edir. Qloballaşmanın İnformasiya Kommunikasiya Texnologiyaları və miqrasiya vasitəsilə sürətli və güclü təsirinə tab gətirmək, milli simanı itirməmək, assimilyasiya olunaraq əriyib itməmək üçün milli özünüdərk tərbiyəsi vacibdir. O,ailədən başlayaraq sonradan əlbir şəkildə bağçada və məktəbdə ciddi şəkildə davam etdirilməlidir.

Bu işdə yalnız müsbət xüsusiyyətləri təbliğ etməklə uğur qazanmaq olmaz. İndiki rəqəmsal dünyada bolluca informasia əldə edən yeniyetmə və gənclərə hər şeyi olduğu kimi çatdırmaq, qüsurlardan nəticə çıxarmağı öyrətmək lazımdır.

Təhsilin bütün pillələrində bütün fənlər üzrə milli özünüdərk tərbiyəsi yönündən iş aparmaq imkanları mövcuddur. Lakin humanitar fənlərin imkanları

daha genişdir. Odur ki, humanitar fənn müəllimləri bu istiqamətdə fəaliyyət dairələrini genişləndirməlidirlər.

Təlim və tərbiyə işinin digər səmərəli bölümünə- sinifdənxaric və məktəbdənkənar işlərə diqqət artırılmalıdır. Bu, tərbiyə işləri üzrə direktor müavinlərinin ümdə vəzifəsi olmalı, sinif rəhbərləri və fənn müəllimlərinin fəaliyyətində bu sahəyə xüsüsi diqqət yetirilməlidir.

Nəticə

Nəticə olaraq deyə bilərik ki, qloballaşma məlum ictimai- iqtisadi formasiyaların fonunda yeni formasiyadır, tarixi hadisədir və qaçılmazdır. Onun rişələri ən qədim dövrlərə gedib çıxır; bu əsrdə kulminasiya nöqəsinə çatmışdır. Digər formasiyalar kimi onu da iqtisadi amillər inkişaf etdirıb zühura gətirmişdir.

Qloballaşma öz- özünə, başlı- başına cərəyan edən sadə proses deyil; o, idarə olunur. Təhlükəlidir, həm də müsbət cəhətləri var. Təhlükəlidir ona görə ki, milli özünəməxsusluqları sıradan çıxarır. Müsbət cəhəti dünya xalqlarının bir birinə yaxınlaşmasındadır. Amma bu yaxınlaşma düzgün başa düşülməzsə, yenə milli yöndən ziyan gətirər. Yəni nə?

-Şüurlarda aşınma, yaxud manqurtlaşma;

-Mənəviyyatlarda aşınma, yaxud öz kökündən ikrah;

-Adət-ənənələrdən uzaqlaşıb simasızlaşma, yaxud buqələmunlaşma;

-Məişətdə aşınma:

a)cəmiyyətdə və ailədaxili ünsiyyətdə;

b)geyim mədəniyyətində;

c)milli mətbəxin süqutunda;

d)milli musiqinin sintez , yaxud savadsız şoular yolu ilə əriyib itməsində;

e)ədəbiyyat və içəsənətdə vulqar azadlıqda;

ə)ana dilinə sayqısızlıqda və s. digər kəsişən xətlərdə.

Bütün bunları nəzərə alaraq hazırki şəraitdə böyüməkdə olan nəslin tərbiyəsinə daha ciddi yanaşmaq, onları milli kökün cazibəsində saxlayaraq reallıqlar zəminində dünya üçün yetişdirmək lazımdır. Ona görə yox ki, onlar dünyaya xeyir versinlər. Ona görə ki, onlar vətəndən pərvazlanıb dünyanın fonunda öncə milli varlığımızı yüksəklərə qaldırsınlar. Bax, bu zaman dünyaya da gərək olacaqlar, dünya onları eşidəcək.

Bəs bu şərəfli işi *pedaqoji yöndən* necə həyata keçirmək olar?

1.Bağça və ibtidai sinif müəllimlərinin *problemlə bağlı* ixtisasartırma kurslarından keçməsi, onların öz pedaqoji fəaliyyətlərində ailələrlə sıx əlaqə saxlamaları, gənc valideynləri maarifləndirmələri ilə.

2.Əgər mümkün olarsa, Azərbaycan Müəllimlər İnstitutunda,həmçinin müvafiq təhsil müəssisələrində dövri valideynlər lektoriyası yaratmaqla; milli dəyərləri qorumağın həyati əhəmiyyətini onlara aşılamaqla; körpələrini bayağı musiqi ilə yatıran gənc analara laylanın, uşaq folkloru nümunələrinin faydasını başa salmaqla.

3.Dərsdə təlim materiallarının yaratdığı imkanlardan səmərəli istifadə etməklə.

4.Pedaqoji prosesi bir zaman olduğu kimi, müntəzəm şəkildə gündəlik həyati faktlarla əlaqələndirməklə.

5.Şagirdlərin asudə vaxtını ümummilli təmayül üzərində düzgün, səmərəli qurmaq və məhz bu yoldan keçərək bəşəriliyə yön götürməklə; yaş dövrlərinə müvafiq səhərcik, dərnək, fərdi oxu, ədəbi- bədii axşamlar, görüşlər,

sərbəst söhbətlər, müzakirələr, diskussiyalar, disputlar, müzakirələr və s. keçirməklə.

6.Təlim və tərbiyə prosesində dini- mənəvi nümunələrdən yerində və düzgün istifadə etməklə; həmçinin, islami dəyərləri ucuzlaşdırıb opponentlərə mövzu verməyin yolverilməzliyini şagirdlərə başa salmaqla.

7.Tarixi ailə adət- ənənələrimizə hörmət və ehtiramla yanaşmaqla.

8.İstər xeyir, istər şər adət-ənənələrimiz içərisində kənar ritualların oturdulmasına qarşı amansız olmaqla.

9.Virtual məkanın şagirdlərin bir insan kimi yetişib formalaşmasına təsirini nəzərə alaraq ölkə televiziyalarında maarifçi proqramlara, xüsusən uşaq verilişləri ənənəsinə yenidən qayıtmaqla. Bu zaman artıq beyinləri iflic edərək düşünməkdən uzaqlaşdırmış şou üslubuna deyil, real gerçəkliyə, məntiqi etik-estetik dəyərlərə söykənməklə. Məsələn, "Tumurcuq", "Bənövşə", "Qırmızı qərənfil" uşaq xorlarını, "Təbiətsevərlər", "Məktəblilərin musiqi klubu", "Məktəblilərin rəqs klubu" verilişlərini bərpa etməklə; bu yöndən yeni verilişlər açmaqla.

10.Uşaqlar üçün yeni mahnı və tamaşalar yaratmaqla. Tamaşa demişkən, Respublikamızda bu örnək var. Pedaqoıi elmlər doktoru, professor, Xalq artisti, bəstəkar Oqtay Rəcəbovun Azərbaycan Respublikası Təhsil Nazirliyi İncəsənət Gimnaziyası şagirdlərinin ifasında "Göyçək Fatma" operası.

11.Qonşu Türkiyədə olduğu kimi, uşaqlar üçün milli ruhla zəngin cizgi filmləri çəkməklə; həmin filmlərdə müasir əxlaqi, etik, estetik dəyərlərlə yanaşı, folklor süjetlərinə geniş yer verməklə və s.

12.Xaricdə yaşayan azərbaycanlı ailələrin, təhsil alan gənclərin, turneyə çıxanların, işləməyə gedənlərin, turistlərin ədəb -ərkan, mənəviyyat dolu həyat tərzləri ilə bizi necə şərəflə təmsil etməsi mövzusunda filmlər (yaxud seriallar) çəkməklə.

13.Əlahiddə "Təhsil" televiziya kanalı yaratmaqla və həmin televiziyada *"Özünü tanı"* bölməsi açıb tarixin dərin qatlarından günümüzədək klassika adına nə yaranıbsa və *kimlər* yaradıbsa (*mağaralar,məbədlər, qalalar, şəhərlər,*

türbələr,məscidlər, saraylar, kitabələr, fundamental yazılı abidələr, muğamlar, simfonok muğamlar, xalq və bəstəkar mahnıları, opera, balet, teatr, kino, rəqslər, rəssamlıq, heykəltəraşlıq, memarlıq, drijorluq, aşıq sənəti, şıfahi ədəbiyyat, yazılı ədəbiyyat, qədim və tarixi təhsil ocaqları, xalq sənəti nümunələri, maarifçilər, xalq qəhrəmanları, Sovet İttifaqı Qəhrəmanları, Sosialist Əməyi Qəhrəmanları, Milli Qəhrəmanlar, hərbçilər, döyüşçü məktəblilər və tələbələr, şəhid uşaqlar, xeyriyyəçilər və s. və s...) hamısının təhrifə yol vermədən, dəqiq, sanballı, dünyaya görk olası tərzdə tanıdılması ilə. Özü də materialların diletantlar tərəfindən deyil, əsl xiridarlar, bilənlər, bilib təqdim edə bilənlər, əsl alimlər, əsl tədqiqatçılar, əsl jurnalistlər tərəfindən hazırlanıb təqdim edilməsi ilə. Beləliklə, ali məqsədlərə xidmət edib vətən övladlarına Xalqını, Vətənini –*özünü* mükəmməl tanıtmaqla.

14.Televiziyalarda uşaq verilişlərini yaradan və cəmiyyətə təqdim edən personalın üşaq aləminə bələdliyini, savadını, dünyagörüşünü, milli ruhunu və dil duyumunu, öz ana dilini bilmə səviyyəsini müəyyənləşdirib sonra iş tapşırmaqla...

Gənc nəslə tövsiyə

Ailədə özünüzün və övladlarınızın milli libasları olsun. Evinizin bir otağını milli, digərini müasir üslubda bəzəyin. Həftələri növbələşdirin; bir həftə milli otaqda qərarlaşın, milli libaslar geyinin, milli xörəklər bişirin, milli musiqiyə qulaq asın, nitqinizdə folklorumuza yer verin.

Növbəti həftə müasir otağa yığışın, müasir geyinin, müasir yeməklər yeyin...

Qoy övladlarınız həyatın hər iki üzünü görsün, ta ki, kökünü tanısın...

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" Sərəncamı. "Xalq qəzeti", 24 may 2012.
2. Azərbaycan Respublikası Prezidentinin İkinci Bakı Beynəlxalq Forumun açılışında çıxışı. "Azərbaycan"qəzeti, 5 oktyabr 2012.
3. Abdullayeva S.A. Sinifdənxaric tədbirlər yuxarı sinif şagirdlərinin milli mənlik şüurunun formalaşmasının mühüm amili kimi (pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyası). Bakı,2006.
4. Ağayev Ə.Ə. Azərbaycan ictimai pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı."Avropa",2005.
5. Ağayev M.H. Təlim-tərbiyə prosesində Heydər Əliyev irsindən istifadə. Bakı. ADPU nəşriyyatı, 2009.
6. Ağayev M.H. Pedaqoji fikir tarixində tərbiyə və təhsil. Bakı. ADPU nəşriyyatı, 2011.
7. Bədəlova Ə.S. Azərbaycan xalq pedaqogikası. Bakı, "Müəllim", 2009.
8. "El" jurnalı. fevral 2003.
9. Əlibəyzadə E. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi (İslamaqədərki dövr). Bakı."Gənclik",1998.
10. Əliyev.H.Ə. "Azərbaycan gəncləri gününə həsr edilmiş bədii –idman bayramında nitq". 2 fevral 1998. ("Müstəqilliyimiz əbədidir" X1V kitab. Bakı, 2005.).
11. Əliyev H.Ə. "Yeni Azərbaycan Partiyasının yaradılmasının altıncı ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitq". 21 noyabr 1998 –ci il. ("Heydər Əliyev: Mənəviyyat, mənəvi dəyərlər, mənəvi tərbiyə"

kitabında. Bakı, "Müəllim", 2008.).

12. Əliyev H.Ə. "Azərbaycan milli televiziyasının 40 illiyi münasibətilə təntənəli yubiley gecəsində çıxış". 17 fevral 1996. ("Heydər Əliyev: Mənəviyyat, mənəvi dəyərlər, mənəvi tərbiyə" kitabında. Bakı, "Müəllim", 2008.).
13. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması. Bakı. "Maarif", 1995.
14. Əhmədov H. X1X əsr Azərbaycan məktəbi. Bakı."Maarif" 1999.
15. Göyüşov Z.B. Əxlaqi sərvətlər. Bakı. "Azərnəşr", 1966.
16. Həşimov Ə.Ş., Sadıqov F.B. Azərbaycan xalq pedaqogikası. Bakı, "Patronat", 1993.
17. Həşimov Ə.Ş., Sadıqov F.B. Pedaqogika: tərbiyə nəzəriyyəsinə dair mülahizələr. Bakı. "Təbib", 1995.
18. Həsənov A.M. Azərbaycan uşaq ədəbiyyatındakı dəyərlərdən kiçik yaşlı məktəblilərin tərbiyəsində istifadə. Bakı, 1977.
19. Həsənov A.M. Məktəbəqədər pedaqogika.Bakı, "Nasir".2000.
20. Həsənli B.A. Ədəbiyyatın tədrisi metodikası. Bakı. "Nasir", 2011.
21. Hüseynzadə R.L. Qədim və orta əsrlərdə Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir. Bakı. "Nurlar", 2007.
22. Kitabi-Dədə Qorqud. Bakı. "Elm", 1988.
23. Qaralov Z.İ. Tərbiyə (üç cilddə). Bakı. "Pedaqogika", 2003
24. Qaralov Z.İ. İdeologiya və mənəviyyat. Bakı."Hüquq", 2008.
25. Qobustani Ş. Bəşəriyyət başlanğıcını haradan götürmüşdür. Bakı."Müəllim", 2009.
26. Quliyev S.M. Gəncliyin tərbiyəsində aqillərin nəsihət və vəsiyyətləri. Bakı. 2011.
27. Qısa siysi lüğət. Bakı. "Azərbaycan Dövlət Nəşriyyatı", 1967.
28. Mənəviyyatın ekologiyası.Bakı. "Səda",2005.
29. Məmmədova A.İ. Kiçik yaşlı məktəblilərin milli ruhda tərbiyəsi.Bakı, "Nasir", 2002.

30. Mollayeva E.Ə. Təlim prosesində gənclərin gender tərbiyəsinin imkan və yolları. .Bakı.”Müəllim”, 2009.
31. Muxtarova N.M. Məktəblilərdə milli şüur və milli ləyaqət hisinin tərbiyəsi üzrə işin sistemi. Bakı. “Gənclik”, 1996.
32. Nərimanov N. Seçilmiş əsərləri.Bakı. Azərb. Milli Ensiklopediyası.2001.
33. Nəzərov A.M. Pedaqoji ustalıq.Bakı.”Müəllim”,2008.
34. Nəzərov A.M ,Mirzəyev C. M. Heydər Əliyev və gəncliyin mənəvi tərbiyəsi. Bakı. ADPU nəşriyyatı, 2009.
35. Sabir M.Ə. Hophopnamə. Bakı. “Turan”, 2002.
36. Sərvət və səxavətdə məşhur cənab Hacı Zeynalabdin Tağıyevin Tərcümeyi-əhvalı. Bakı. ”İşıq”, 1993.
37. Süleymanov M. Eşitdiklərim,oxuduqlarım,gördüklərim. Bakı. “Azərnəşr”, 1987.
38. Rüstəmxanlı S.X. Ömür kitabı. Bakı. ”Gənclik”, 1989.
39.Talıbov Y.R. və başqaları. Azərbaycanda məktəb və pedaqoji fikir tarıxi. Bakı.”Ünsiyyət”, 2000.
40. Talıbov Y.R. və başqaları. Məktəblilərin milli mentalitet əsasında tərbiyə edilməsi. Bakı. BDU nəşriyyatı, 2004.
41. Tusi N. Əxlaqi –Nasiri. Bakı. “Elm”, 1989.

Mündəricat

1. Qloballaşma və onun təzahürləri……...
2. Qloballaşma şəraitində milli özünüdərk tərbiyəsinin vacibliyi……
3. Məktəbəqədər təhsil müəssisələrində milli özünüdərk tərbiyəsi.....
4. Bağçada bayram (ssenari).....
5. Məktəbdə şagirdlərin milli özünüdərk tərbiyəsi.....
Nəticə.....

Bədəlova Əsmər Sadıq qızı

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ BÖÜMƏKDƏ OLAN NƏSLİN MİLLİ ÖZÜNÜDƏRK TƏRBİYƏSİ

Nəşriyyatin direktoru: ***Hüseyn Hacıyev***
Texniki redaktor: ***Gülbəniz Məmmədova***
Dizayn: ***Müşfiq Hacıyev***
Cildçi: ***Azad Həmzəyev***
Montajçı: ***Elmira İsmayılova***

==========

Çapa imzalanmış 17. 09. 2013 –cü il
Kağız formatı 60x84 1/16, çap vərəqi 6
Sifariş 216 sayı 200

==========

ADPU –nun mətbəəsi
Bakı, Ü.Hacıbəyov küçəsi, 34
Tel: (+912) 493-74-10
E.mail.ADPU@Box.az